19 iyul 2023 №53 (2022) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Bir millət, iki dövlət" və Şuşa Bəyannaməsi ilə möhkəmlənən müttəfiqlik

Prezident İlham Əliyev iyulun 17-də Türkiyə Böyük Millət Məclisində Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Şuşa Bəyannaməsi ilə müttəfiqlik prinsipi əsasında ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran İlham Əliyev Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın parlament səviyyəsində daha da inkişaf etdirilməsinin, parlamentlərin xarici əlaqələr komitələrinin bu çərçivədə fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

*səh. 2*

## Azərbaycan Respublikasının Kino Agentliyi film layihələri müsabiqəsi elan edib



Mədəniyyət Nazirliyinin tabeliyində olan "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsi (ARKA) film layihələri müsabiqəsi elan edib.

Müsabiqə dövlət tərəfindən kino sahəsinin inkişafının dəstəklənməsi, kinematoqrafiya fəaliyyətinin təşviq edilməsi və yerli kinematoqrafçıların təcrübəsinin artırılması, milli-mənəvi və ümumbəşəri dəyərləri təbliğ edən filmlərin istehsalına nail olunması, eləcə də bu sahədə özəl sektorun dəstəklənməsi məqsədilə təşkil olunur.

İyulun 17-də Mədəniyyət Nazirliyində kino ictimaiyyəti nümayəndələrinin iştirakı ilə müsabiqəyə həsr olunan təqdimat tədbiri keçirilib.

*davamı səh. 2-də*

## 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası üzrə portalın təqdimatı

İyulun 18-də Nazirlər Kabinetində Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının monitorinq portalının təqdimatı keçirilib.

Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov bildirib ki, dövlət başçısının 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş Strategiyada müəyyən edilmiş beş prioritet üzrə genişmiqyaslı tədbirlərin görülməsi nəzərdə tutulur. Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə Strategiyanın həyata keçirilməsinə dair institusional monitorinq, qiymətləndirmə və digər məsələlər tənzimlənir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı azerbaijan2030.gov.az portalı haqqında məlumat verib. Bildirib ki, 2030-cu ilə kimi müəyyən olunan 5 Milli Prioritet üzrə qoyulan hədəflərə çatmaq məqsədilə Strategiyada 2022-2026-cı illər üçün 10 Məqsəd müəyyənləşdirilib. Bu məqsədlərə çatmaq üçün 20 əsas hədəf indikatoru təyin edilib. Strategiyanın "Tədbirlər Planı" bölməsində 65 fəaliyyət istiqamətinin 269 tədbiri üzrə 261 ilkin nəticə, 328 aralıq nəticə və 162 yekun nəticə indikatorları olmaqla toplam 751 indikator qeyd edilib. Əsas hədəf indikatorları üzrə monitorinq Strategiyanın icrasına başlanıldığı müddətdən davamlı olaraq həyata keçiriləcək.

# Mədəniyyət paytaxtımızda söz-sənət bayramı

### Şuşa növbəti Vaqif Poeziya Günlərinə ev sahibliyi etdi

Xəbər verdiyimiz kimi, 14-15 iyul tarixlərində mədəniyyət paytaxtımız Şuşa növbəti dəfə Vaqif Poeziya Günlərinə ev sahibliyi etdi. Builki poeziya bayramı qala-şəhərimiz üçün əlamətdar bir ildə – Şuşanın 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını yerinə yetirdiyi dövrdə keçirildi. Bu tədbir qardaş ölkələrdən də ədəbiyyat adamlarını bir araya gətirdi.



Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı ilə keçirilən poeziya bayramı iyulun 13-də şairin doğma şəhərində – Qazax rayonunun Yuxarı Salahlı kəndində başlayıb. Çıxışlar dinlənilib, ənənəvi tədbirin tarixindən söz açılıb, konsert proqramı təqdim edilib.

İyulun 14-də Vaqif Poeziya Günlərinin iştirakçıları Şuşada tarixi, dini məkanları, Milli Xalça Muzeyinin Şuşa filialını ziyarət ediblər. Yuxarı Gövhər ağa məscidinin ərazisindəki mədrəsə binasında "Mir Möhsün Nəvvab Qarabaği: XIX əsrin ensiklopedik alimi" sərgisi ilə tanış olublar.

Həmin gün Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi önündə Vaqif Poeziya Günlərinin açılışı olub.

Açılış mərasimində Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Prezidentin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlu, Türk Ədəbiyyat Vəqfinin rəhbəri Serhat Kabaklı, ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

AYB sədrinin birinci müavini Xalq yazıçısı Çingiz Abdullayev çıxış edərək Vətən müharibəsində Şuşanın işğaldan azad olmasından sonra ədəbiyyat bayramının artıq üçüncü dəfə təşkil olunduğunu söyləyib. Görkəmli şair və dövlət xadimi Molla Pənah Vaqifin yaradıcılığından söz açan Ç.Abdullayev deyib: "Biz fəxr edirik ki, öz mövqeyindən dönməyən Nəsimi, Vaqif, Mikayıl Müşfiq, Hüseyn Cavid kimi şairlərimiz olub. Bu gün biz böyük şairimizin məqbərəsinin önünə Vaqif poeziyasının işığına toplaşmışıq. Azərbaycan Yazıçılar Birliyi adından hər birinizə təşəkkür edirəm, ona görə ki, bu, dövlətin, xalqın qiymətidir. Belə ədiblər olmasaydı, bu gün Azərbaycan ədəbiyyatı olmazdı. Nə qədər insan Şuşaya gəlmək istəyir. Ona görə ki, Şuşa Azərbaycanın ürəyidir. İnanıram ki, burada keçirilən bu bayramlar əbədi olacaq və düşmənin ayağı heç vaxt bu torpaqlara dəyməyəcək".





Türk Ədəbiyyat Vəqfinin rəhbəri Serhat Kabaklı Şuşada Vaqif Poeziya Günlərinə dəvət olunmasından qürur hissi keçirdiyini deyib və tədbirin təşkilatçılarına təşəkkür edib. Şuşanın işğaldan azad olunduğu günlərdə Bakıda olduğunu və burada gördüyü möhtəşəm Qələbə sevincini ömrü boyu unutmayacağını bildirən Serhat Kabaklı deyib: "Həmin gün Bakının küçələrində Azərbaycan və Türkiyə bayraqlarının insanlar tərəfindən böyük coşqu və sevgi ilə dalğalandığını görmək olduqca sevincli idi. Gördüklərimdən o qədər duyğulanmışdım ki, göz yaşlarıma hakim ola bilmədim. İstanbula döndükdən sonra "Şükür" namazı qıldım və dua etdim ki, Allah mənə Şuşada da bu namazı qılmağı nəsib etsin. Çox şükür ki, Allah bunu mənə nəsib etdi. Bu gün Şuşada Vaqif Poeziya Günlərində yaşadığım unudulmaz hissləri ürəyimdə yenidən Türkiyəyə daşıyacağam".

Sonra çıxış edən Xalq şairi Vahid Əziz, Özbəkistanın Xalq şairi Xurşud Davron, AYB-nin katibi Əməkdar mədəniyyət işçisi Rəşad Məcid, şair-tərcüməçi, TÜRKSOY Yazıçılar Birliyinin vitse-prezidenti Səlim Babullaoğlu Şuşanın füsunkarlığı, qeyri-adi təbiəti, beynəlxalq tədbirlərin ünvanına çevrilməsi və "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını daşımasından danışıblar.

*davamı səh. 3-də*

## Vyanada "Arzu balıq" dastanı təqdim olunub

Avstriyada fəaliyyət göstərən "ÖST Ensemble" Vyanada ilk konsert proqramı ilə çıxış edib. Vyana Musiqi və Səhnə Sənətləri Universitetində reallaşan konsertdə ansambl musiqisevərlərin görüşünə "Arzu balıq" dastanı ilə çıxıb.

"Arzu balıq" dastanı görkəmli təbrizli yazıçı, tərcüməçi-publisist Səməd Behrənginin "Balaca qara balıq" nağılı əsasında Aria Torkanbouri tərəfindən yazılıb. Bu performans başdan-başa Azərbaycan-türk aşıq-dastan ənənəsi əsasında qurulub. Fərqli musiqi və rəqs mədəniyyətlərindən seçilən əsərlərin hamısı dastan rəvayəti əsasında, aşıqların dastan söyləmə formasına dayanaraq yeni üslubda ifa olunub.



"Arzu balıq" dastanında Fikrət Əmirovun "Mən səni araram", "Min bir gecə" baletindən rəqs, Niyazinin "Qaytağı" və Güney Azərbaycan aşıq mahnısı "Çal, aşıq, çal" kimi əsərlər başqa musiqilərlə yanaşı təqdim edilib. Bunlarla bərabər, "Mahur" və "Şüştər" muğamları da Vyanada yaşayan təbrizli solist Hadi Mostafaei tərəfindən ifa edilib. Azərbaycan türkcəsindən savayı gilək, fars, gürcü, Türkiyə türkcəsi, qazax türkcəsi, maqduniyyə və macar dillərində mahnılar da səsləndirilib. Dastanın özü isə Berlin şəhərində yaşayan və əslən təbrizli Həmid Saneiy tərəfindən Azərbaycan və alman dillərində söylənilib.

*davamı səh. 2-də*

## Xalq rəssamının "Xətai əfsanəsi"

İyulun 17-də Xətai Sənət Mərkəzində Xalq rəssamı Əşrəf Heybətovun "Xətai əfsanəsi" adlı pannosunun təqdimatı və əsərlərinin sərgisi keçirilib.

Sərgi böyük şair, Azərbaycan Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətainin (1487-1524) doğum gününə (17 iyul) həsr olunub.

Çıxış edənlər rəssamın əsərlərinin ideya-sənətkarlıq xüsusiyyətlərindən söz açıb, sərgi münasibətilə təbriklərini çatdırıblar.

Sərgidə Xətainin pannosu və rəssamın 20-dək digər əsəri yer alıb. Sənətkarın "Xətai əfsanəsi" pannosu xüsusilə tamaşaçıların diqqətini cəlb edib.

Sərgi iyulun 22-dək davam edəcək.



## Ekstremizmlə mübarizədə mədəniyyət və incəsənətin rolu

### ICESCO-da beynəlxalq elmi forum

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Mərakeşin Rabat şəhərindəki mənzil-qərargahında "Cinayətkarlıqla və ekstremizmlə mübarizədə mədəniyyət və incəsənətin rolu" mövzusunda beynəlxalq elmi forum işə başlayıb.

Təşkilatdan bildiriblər ki, forum Səudiyyə Ərəbistanı Krallığının Naif Ərəb Təhlükəsizlik Elmləri Universiteti (NAUSS) və BMT-nin Körfəz Əməkdaşlıq Şurası Regionu üzrə Narkotiklər və Cinayətlər üzrə İdarəsi (UNODC) ilə birgə keçirilir. Tədbirin əsas məqsədi cinayətkarlıqla mübarizəyə mədəniyyət xadimlərinin verə biləcəyi töhfəni müzakirə etmək, birgəyaşayışın dəstəklənməsi üçün mədəni və bədii məzmunun əhəmiyyətinə işıq salmaq və bu sahədə ən yaxşı ərəb, regional və beynəlxalq təcrübələri nəzərdən keçirməkdir.

Üç gün davam edəcək forumun açılış sessiyasında təşkilata üzv ölkələrin Daxili İşlər, Ədliyyə, Sosial Məsələlər, İnformasiya və Mədəniyyət nazirliklərinin yüksəkvəzifəli şəxsləri və ekspertləri, regional və beynəlxalq təşkilatların nümayəndələri, elm xadimləri iştirak ediblər.

Forumda çıxış edən ICESCO-nun baş direktoru Salim əl-Malik mədəniyyət və incəsənətin insan həyatında mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, cəmiyyətdə örnək olmayan cinayətkarlıq və ekstremizm ağır sosial şəraitin məhsuludur. Baş direktor mədəniyyət və incəsənət siyasətinin cinayətkarlıq və ekstremizm problemlərinin həlli vasitəsi kimi əhəmiyyətinə, ziyalıların sosial siyasətdə və sivilizasiya quruculuğunda roluna toxunub.

## UİF-nin II mərhələsi yekunlaşmaq üzrədir



*səh. 4*

## Bədii təhsil müəssisələrinə işə qəbul imtahanının nəticələri elan olunub

*səh. 2*



# "Bir millət, iki dövlət" və Şuşa Bəyannaməsi ilə möhkəmlənən müttəfiqlik

### Prezident TBMM-in nümayəndə heyətini qəbul edib

Türkiyə ilə Azərbaycan arasında münasibətlər "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edir.

Türkiyənin keçmiş vitse-prezidenti, hazırda Türkiyə Böyük Millət Məclisində (TBMM) Xarici əlaqələr komitəsinin sədri olan Fuat Oktay bu fikri Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə deyib.

Fuat Oktay Şuşa Bəyannaməsi (2020) ilə rəsmi olaraq müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə münasibətlərinin həmin sənəddən irəli gələn məqsəd və məramlar əsasında daha da inkişaf etdirilməsinin önəmini vurğulayıb. İqtisadi-ticari əlaqələrin genişlənməsindən məmnunluğunu bildirən TBMM-in komitə sədri ölkələrimizin Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığının genişlənməsi istiqamətində səyləri yüksək qiymətləndirib. O, həmçinin iki ölkə arasında enerji, təhsil, hərbi, hərbi-texniki, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələlərini qeyd edib.

Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlığın inkişafına toxunan Prezident İlham Əliyev bu ilin iyun ayında Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri zamanı Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirakının bu əməkdaşlığın növbəti nümunəsi olduğunu bildirib. Şuşa Bəyannaməsi ilə müttəfiqlik prinsipi əsasında ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran İlham Əliyev Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın parlament səviyyəsində daha da inkişaf etdirilməsinin, parlamentlərin xarici əlaqələr komitələrinin bu çərçivədə fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə Orta Dəhliz, enerji sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb, son dövrlərdə Türkiyə ilə Azərbaycan arasında preferensial (güzəştli) ticarət sazişindən irəli gələrək iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi və ticarət dövriyyəsinin 6 milyard dollara çatması müsbət məqamlar kimi qeyd olunub.

## Prezident İraq Kürdüstan Regionunun başçısı ilə görüşüb



İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə təkbətək görüşü olub.

Söhbət zamanı Prezident İlham Əliyev ilə Neçirvan Bərzani arasında bu ilin fevralında Münxendə keçirilən görüş xatırlanıb. Həmin görüşdə əməkdaşlığın əsas istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olunub, Neçirvan Bərzaninin səfərinin əməkdaşlığımızın dinamikasının artmasına töhfə verəcəyi bildirilib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib.

Dövlətimizin başçısı İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində bu ilin martında Azərbaycana səfəri və ikitərəfli əlaqələrimizin inkişafına dair onunla apardığı müzakirələri, həmçinin İraq Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseynin ölkəmizə səfəri zamanı keçirdiyi görüşü və əlaqələrimizin inkişafı ilə əlaqədar müzakirələri məmnunluqla xatırladıb.

Söhbət zamanı İraq Kürdüstan Regionu ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, sərmayələr, enerji sahəsində əməkdaşlıq, turizm imkanlarının artırılması, birbaşa aviareyslərin açılması və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

## Doğma yurda qayıdırıq...

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.



İyulun 18-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 18 ailə (73 nəfər) köçürülüb.

Yolasalma mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin Xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər.

Bununla da Laçın şəhərində 111 ailənin (424 nəfər) daimi məskunlaşması təmin edilib. Xatırladaq ki, Laçın şəhərinə sakinlərin qayıdışı mayın 28-də başlayıb və mərhələlərlə davam edir.

## Laçında daha bir tamaşa nümayişi

### "Sarı Aşığın dastanı" fərqli təqdimatda...



"Səhnə" teatrı Laçında "Sarı Aşığın dastanı" tamaşasının premyerasını təqdim edib.

Tamaşanın prodüseri Elçin Hacı bildirib ki, tamaşa "Yaxşı və Aşıq" dastanının motivlərindən istifadə edilməklə Xaqani Əliyevin qələmə aldığı pyes əsasında hazırlanıb. Səhnə əsərinin quruluşçu rejissoru Elvin Mirzəyev, xoreoqrafı Zaur Əliyevdir.

Tamaşa XVII əsrdə Laçının Güləbird kəndində yaşamış Sarı Aşığın nakam məhəbbətindən bəhs edir.

Tamaşadakı obrazları Vaqif Kərimov (Əməkdar artist), Ramil Məmmədov, Əhliman Ərşadlı, Mirzə Səfərov, Elçin Əmirov, Nazlı Quliyeva, Rəvan Hüseynzadə, Kənan Balakişiyev, Məleykə Cəfərova, Elvin Abbasov və Rəhimə Abdinova oynayıblar.

Xatırladaq ki, iyulun 11-də Şuşa Dövlət Musiqili Dram Teatrı Laçın şəhərində sakinlərin qonağı olub və "Lənkəran xanının vəziri" komediyasını nümayiş etdirib.

# Azərbaycan Respublikasının Kino Agentliyi film layihələri müsabiqəsi elan edib

### Layihələr dörd istiqamət üzrə qəbul olunacaq

*əvvəli səh. 1-də*

Bildirilib ki, müsabiqədə Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və kinematoqrafiya sahəsində fəaliyyət göstərən müstəqil prodüser mərkəzləri və digər hüquqi şəxslərin istehsal etdiyi film layihələri iştirak edə bilər. Müsabiqəyə bir neçə hüquqi şəxsin birgə qatılması da mümkündür.

Müsabiqəyə təqdim edilmiş film layihələrində 5 əsas müəllifdən (quruluşçu rejissor, ssenari müəllifi, quruluşçu operator (təsvir rejissoru), quruluşçu rəssam, bəstəkar) azı üçü Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayış icazəsi olan şəxslər olmalıdır.

Müsabiqənin ümumi fondu 5 500 000 manat təşkil edir və layihələr dörd istiqamət üzrə qəbul olunacaq: dövlət sifarişi ilə istehsal olunacaq filmlər; kommersiya filmləri; müəllif filmləri; debüt və tələbə filmləri.

Dövlət sifarişi ilə istehsal olunacaq film (tammetrajlı və ya qısametrajlı bədii, sənədli və animasiya filmləri) layihələri üçün 2 000 000 manat nəzərdə tutulub. Kommersiya filmləri (tammetrajlı bədii, sənədli və animasiya filmləri) layihələri üçün 1 250 000 manat, müəllif filmləri (tammetrajlı və ya qısametrajlı bədii, sənədli və animasiya filmləri) layihələri üçün 1 250 000 manat ayrılacaq. Debüt (tammetrajlı və ya qısametrajlı bədii, sənədli və animasiya filmləri) və tələbə (yalnız qısametrajlı filmlər) layihələri üçün isə 1 000 000 manat nəzərdə tutulub.



Müsabiqənin 1-ci mərhələsi 18 iyul – 15 sentyabr 2023-cü il tarixlərini əhatə edir və bu mərhələdə ARKA tərəfindən layihələrin qəbulu həyata keçirilir. 2-ci mərhələdə (1 sentyabr – 15 oktyabr 2023-cü il) Seçim Komissiyası tərəfindən ilkin qiymətləndirmə və bədii seçim həyata keçiriləcək. Müsabiqənin 3-cü mərhələsində (21-22 oktyabr 2023-cü il) Seçim Komissiyası və Ekspert Şurası qarşısında layihələrin iştirakçılar tərəfindən müdafiəsi (pitçinq) olacaq. Pitçinq mərhələsini uğurla başa vurmuş layihələr qalib hesab ediləcək və həmin layihələri təqdim etmiş iştirakçılarla müqavilə bağlanacaq.

Müsabiqənin şərtləri və layihələrin təqdim olunması ilə bağlı tələblər barədə daha ətraflı ARKA-nın rəsmi saytında ( https://arka.culture.az ) məlumat əldə etmək olar.

# Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib

### 3 nəfər seçilib, boş qalan 6 yer üçün təkrar seçki olacaq

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununa (2013-cü il 22 noyabr) və Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq, iyulun 17-də Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib. Beynəlxalq Muğam Mərkəzində təşkil edilən seçkilərə 26 namizəd qatılıb.



Seçkinin nəticəsində tələb olunan səs çoxluğunu toplamış 3 namizəd İctimai Şuranın üzvü seçilib: Yolçuyev Əkbər Mehdi oğlu; Mustafayeva Samirə Vəli qızı; Qədirov Vuqar Kərim oğlu.

İctimai Şura 9 nəfərdən ibarət olmalıdır. Boş qalan 6 yer üçün 20 iyul tarixində (saat 11:00-dan 14:00-dək) Beynəlxalq Muğam Mərkəzində namizədliyi qeydə alınmış şəxslər arasında təkrar seçki keçiriləcək. Təkrar seçkidə daha öncə qeydiyyata alınmış vətəndaş cəmiyyəti institutları təmsilçilərinin seçici qismində iştirakı nəzərdə tutulub.

Səsverməyə gələn zaman şəxsiyyət vəsiqəsini (yaxud şəxsiyyəti təsdiq edən digər sənəd) götürmək xahiş olunur.

## Bədii tədris müəssisələrinə işə qəbul imtahanının nəticələri açıqlanıb

Xəbər verdiyimiz kimi, 16 iyul 2023-cü il tarixində Dövlət İmtahan Mərkəzi (DİM) və Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinləri və müəllimlərin işə qəbulu üzrə test imtahanı keçirilib.

İyulun 18-də DİM imtahan nəticələrini elan edib. İştirakçılar imtahan nəticələri və cavab kartlarının qrafik təsviri ilə DİM-in internet saytında tanış ola bilərlər.

İmtahanda iştirakı nəzərdə tutulan 1134 nəfərdən 25-i imtahana gəlməyib.

Direktor və direktor müavinlərinin imtahanında namizədlərə 100, müəllimlərin imtahanında isə 70 test tapşırığı təqdim olunub. Hər düzgün cavab bir balla qiymətləndirilir.

Test mərhələsində tələb olunan keçid balını toplayaraq uğur qazanan namizədlər müsahibə mərhələsinə buraxılırlar.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM tərəfindən 20 iyul 2023-cü il tarixindən etibarən (telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesi təşkil ediləcək. Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 19 iyul saat 10:00-dan 21 iyul saat 17:00-dək DİM-in internet saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər.



# Vyanada "Arzu balıq" dastanı təqdim olunub

### Təbrizli yazıçının məşhur əsəri "ÖST Ensemble"nin ifasında

*əvvəli səh. 1-də*

"ÖST Ensemble" bəstəkar, musiqi nəzəriyyəçisi və etnomusiqişünas Aria Torkanbouri tərəfindən 2020-ci ildə Vyanada təşkil edilib. "Arzu balıq" dastanından öncə o, Azərbaycan-türk aşıq sənətinə həsr olunmuş diplom işini Vyana Musiqi və Səhnə Sənətləri Universitetinin Etnomusiqişünaslıq İnstitutunda bitirib. A.Torkanbouri dünyanın musiqi mərkəzi sayılan Vyanada Azərbaycan-türk dastan ifaçılığı ənənəsini yeni formada səhnəyə çıxarmağı əhəmiyyətli bir addım kimi görür. Təxminən iki saat davam edən konsert beynəlxalq tamaşaçı kütləsi tərəfindən böyük maraq və zövqlə qarşılanıb.

Bu performansın başqa bir özəlliyi seçilmiş əsərlərin hamısının Şərq musiqi səs sistemi qanunlarına uyğun olan və həmin səs sisteminin tonal qanunlarına uyaraq aranjiman və ifa olunmasıdır. Aria Torkanbouri neçə illərdir ki Şərq musiqisinin səs sistemi üzərində tədqiqat aparır. "Arzu balıq" dastanı performansında müxtəlif (Azərbaycan/Türkiyə/Qazaxıstan), fars, ərəb, yəhudi, macar və s. musiqi mədəniyyətlərindən nümunələr qarışıq formada ifa olunub.

A.Torkanbouri 2007-ci ildən bəstəkarlığa başlayaraq Tehran, Bakı, İstanbul, Berlin, Qrats və Vyananın müvafiq universitetlərində fortepiano, bəstəkarlıq, orkestr dirijorluğu, musiqi nəzəriyyəsi və etnomusiqişünaslıq üzrə mütəxəssislərdən dərs alıb. O cümlədən Azərbaycanda Arif Məlikov, Ceyhun Allahverdiyev, Azər Dadaşov, Lalə Rzayeva və Əyyub Quliyev kimi müəllimlərin tələbəsi olub. Bəstəkar Güney Azərbaycanın "Talibi-nur" adlı ilk operasını 2014-cü ildə Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası üzrə yazdığı yeni rəvayət əsasında səhnəyə çıxarıb.

# Mədəniyyət paytaxtımızda söz-sənət bayramı

## Şuşa növbəti Vaqif Poeziya Günlərinə ev sahibliyi etdi

*əvvəli səh. 1-də*

Vətənpərvərlik mövzusunda, eləcə də mədəniyyət paytaxtımız Şuşaya həsr olunmuş şeirlər səsləndirilib. Tədbir respublikanın incəsənət ustalarının ifasında konsert proqramı ilə davam edib.

***

Həmin gün Şuşa Yaradıcılıq Mərkəzində müasir Azərbaycanın qurucusu, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Dövlətin memarı. Bir ömrün ensiklopediyası" xatirə xalça kompozisiyasının təqdimatı keçirilib. Dövlət rəsmiləri və mədəniyyət xadimləri unikal xalça nümunəsi ilə tanış olublar.



Heydər Əliyev Fondu, İqtisadiyyat Nazirliyi və "Azərxalça" ASC tərəfindən həyata keçirilən layihənin həmmüəllifləri Əməkdar incəsənət xadimi, "Azərxalça" ASC İdarə Heyətinin sədri Emin Məmmədov, Əməkdar rəssam Rəşad Ələkbərov, icraçıları isə "Azərxalça"nın yaradıcı komandasıdır.

Üç hissədən ibarət əsərin hər bir hissəsində Ümummilli liderin əsas həyat fəlsəfəsi, daim diqqətdə saxladığı məsələlər, önəm verdiyi dəyərlər ilk dəfə "xalça dili"ndə çatdırılır.

### Kitab təqdimatı və elmi konfrans

İyulun 14-də Şuşada Mehmandarovların malikanə kompleksində Vaqif Poeziya Günləri çərçivəsində Ulu öndər Heydər Əliyevə həsr olunmuş "Əbədi ömrün 100 ili" kitabının təqdimatı və "Molla Pənah Vaqifin ədəbi yaradıcılığı türk irsi müstəvisində" mövzusunda elmi konfrans keçirilib.

Azərbaycan Yazıçılar Birliyi tərəfindən nəşr olunmuş və Ümummilli lider Heydər Əliyevin yubileyinə həsr edilmiş "Əbədi ömrün 100 ili" kitabında görkəmli şairlərin, yazıçıların və alimlərin oçerklər və




esse formasında Ulu öndər haqqında toplanmış xatirələri yer alıb.

Kitabın redaktoru Yazıçılar Birliyinin katibi Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli nəşr haqqında məlumat verib. Bildirilib ki, kitabda tarixi hadisəyə – 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin muzey-məqbərəsinin və Poeziya evinin bu il 100 illiyini qeyd etdiyimiz Ümummilli lider Heydər Əliyevin iştirakı ilə təntənəli açılışına xüsusi yer ayrılıb. Məhz bu səfər əsnasında Ümummilli lider Vaqif Poeziya Günlərinin keçirilməsi barədə tapşırıq verib. Müasir Azərbaycan ədəbiyyatı tarixində unikallığı ilə fərqlənən Vaqif Poeziya Günləri həmin tarixdən 1991-ci ilədək hər il şairin Vətənində – Qazaxda başlayır və Şuşadakı möhtəşəm Cıdır düzündə başa çatırdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun Vətən müharibəsində tarixi Qələbəsi nəticəsində Şuşa şəhərinin erməni işğalından azad edilməsindən sonra 41 illik tarixi olan Vaqif Poeziya Günləri yenidən Azərbaycanın mədəniyyət paytaxtında keçirilir.

Qeyd olunub ki, işğal dövründə digər tarixi abidələrimiz kimi, Molla Pənah Vaqifin muzey-məqbərəsi də erməni vandalizminə məruz qalıb və torpaqlarımız azad olunduqdan sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilərək 2021-ci ilin avqustunda ikinci dəfə açılışı keçirilib.

"Molla Pənah Vaqifin ədəbi yaradıcılığı türk irsi müstəvisində" mövzusunda elmi konfransda yazıçı və şairlər Çingiz Abdullayev, Rəşad Məcid, Baba Vəziroğlu, Səlim Babullaoğlu və başqaları çıxış ediblər.

Bildirilib ki, Vaqifin yaradıcılığı ülvi məhəbbətin tərənnümü, ruhun gözəlliyi və doğma təbiətin əsrarəngizliyi ilə bağlı parlaq rənglərlə zəngindir və milli poeziyanın, musiqinin inkişafına böyük təsir göstərib. Onun yaradıcılığının ən bariz xüsusiyyətləri nikbinlik, rəng çalarlarının çoxlu-



ğu, obrazların zənginliyi, incə bədii ustalıq, canlı və ifadəli dildir. Şairin bədii irsində qoşma janrı xüsusi yer tutur. Onun şeirlərinin dili xalq yaradıcılığına daha yaxındır. Vaqif Azərbaycan yazılı ədəbiyyatının milli-etnik şifrlərinin əsasının qoyulmasında və Azərbaycan xalqının poeziyada obrazının yaradılmasında müstəsna rol oynayıb. Vaqif lirikasının xüsusi fərqli cəhəti doğma Qarabağ torpağının ilkin gözəlliyini və özünün ona olan sonsuz sevgisini parlaq poetik rənglər vasitəsilə göstərməkdir. Şair bu sevgiyə böyük fəlsəfi mahiyyət qatır və onu insan hisslərinin ən ali təcəssümü ilə tərənnüm edirdi.

### "Dövri-səda" konserti

Vaqif Poeziya Günləri çərçivəsində Natəvanın evi qarşısında "Dövri-səda" adlı konsert proqramı təqdim olunub. Konsertdə Əməkdar artist Vüqar Camalzadənin ədvar (dövrlər) sistemi üzrə bəstələdiyi 8 musiqinin Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim musiqi alətləri ansamblının ifasında təqdimatı olub.

Ədvar Şərq musiqisində "sistemçilik" adı ilə məşhur məktəbin banisi olan Səfiəddin Urməvi yaradıcılığının Şərq musiqi nəzəriyyəsi sahəsində ən böyük nailiyyətidir. Ədvar sistemi ilə Azərbaycan, eləcə də bütün Şərq musiqisinin əsasını təşkil edən səs kompleksləri sistemi nizama salınır.

Konsertdə Xalq artistləri Nəzakət Teymurova, Teyyub Aslanov, Əməkdar artist Fərqanə Qasımova, xanəndələr Rövşən Məmmədov, Hüseyn Məlikov, Aysel İbrahimova və digərləri Molla Pənah Vaqifin qəzəlləri ilə yanaşı, Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Mir Həmzə Nigari və Mir Möhsün Nəvvabın bədii irsindən nümunələr səsləndiriblər. Qiraətçilər isə qəzəllər söyləyiblər.

İncəsənət ustalarının bir-birindən maraqlı ifaları izləyicilərin zövqünü oxşayıb, alqışlarla qarşılanıb.

***

Mədəniyyət paytaxtımızdakı poeziya bayramının tədbirləri gecə saatlarında da davam edib.



Şuşanın müxtəlif məkanlarında şeirlər səsləndirilib, musiqilər ifa olunub. "Elektron muğam saatı"nda tarzən və bəstəkar İbrahim Babayev milli və elektron musiqinin sintezindən ibarət ifalarını təqdim edib.

Bundan başqa, açıq səhnədə gənc qiraətçilər və şairlər musiqinin müşayiəti ilə improvizasiya şəklində öz şeirlərini səsləndiriblər.

### "Vətənim Qarabağ" – poeziya axşamı

Vaqif Poeziya Günləri gedişində "Vətənim Qarabağ" adlı poeziya saatı da təşkil olunub. AYB-nin katibi İlqar Fəhmi çıxış edərək ənənəvi poeziya günlərinin mədəniyyətimiz və ədəbiyyatımız üçün əhəmiyyətini vurğulayıb.



Şair-tərcüməçi Səlim Babullaoğlu deyib ki, hər dəfə gözəl, mübarək Şuşa torpağında olmaq hər kəsə böyük məmnuniyyət gətirir: "44 günlük savaş günlərində bizim yaxın-uzaq ölkələrdə yaşayan həmkarlarımız, dostlarımız Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında böyük işlər görüblər. Bunlardan biri də qardaş Türkiyənin dəyərli ziyalılarından tanınmış yazıçı, tərcüməçi Ömər Küçük Mehmetoğludur. Ömərin tərcüməsində bizim görkəmli ədiblərin əsərləri Türkiyə türkcəsində nəşr olunub. Türkiyənin məşhur "Heca" dərgisinin 7-8 il bundan əvvəl Azərbaycan ədəbiyyatına həsr olunmuş xüsusi nömrəsi işıq üzü görüb. Bu günlərdə jurnalın Azərbaycan poeziyasına həsr olunmuş xüsusi nömrəsi çapdan çıxıb. Bütün bu xidmətlərinə görə o, Azərbaycan Yazıçılar Birliyinin "Bəxtiyar Vahabzadə" mükafatına layiq görülüb".

Sonra mükafat türkiyəli yazıçıya təqdim olunub.

Ömər Mehmetoğlu göstərilən etimada görə Azərbaycan Yazıçılar Birliyinə təşəkkür edib.

Xalq şairi Vahid Əziz bildirib ki, biz 30 il sınağa çəkildik, bu illər, bir an da olsun, müqəddəs yurd yerlərimizi, Qarabağımızı unutmadıq, daim bu günü düşündük və arzuladıq: "Şükürlər olsun ki, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Ordumuz bu həsrətə, nisgilə son qoydu. Bu gün Azərbaycanın müqəddəs şəhərində belə bir möhtəşəm tədbirin keçirilməsi bir daha dövlətimizin gücünü, qüvvəsini, Ordumuzun yenilməzliyini göstərir. Bu müqəddəs məkanda belə bir söz bayramına toplaşmağımıza görə Vaqif Poeziya Günlərinin iştirakçıları adından ölkəmizin başçısına minnətdarlığımı bildirirəm".

Yazıçı Seyran Səxavət, şairlər Barat Vüsal, Qəşəm Nəcəfzadə, Əlisəmid Kür, Əkbər Qoşalı, britaniyalı tərcüməçi İan Peart, türkiyəli şair Serhat Kabaklı, özbəkistanlı şair Xurşud Davron və digərləri çıxış edərək Vaqif Poeziya Günlərinin əhəmiyyətini yüksək qiymətləndirib, şeirlər səsləndiriblər.

### "Vaqif dünyası"

Poeziya şöləninin sonuncu günü "Vaqif dünyası" adlı poetik-musiqili tamaşa nümayiş olub. İyulun 15-də təqdim edilən tamaşada Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Məhəmməd Füzuli, Əlişir Nəvai, Şah İsmayıl Xətai və Türk dünyasının digər tanınmış şairlərinin obrazları canlandırılıb.

Səhnə əsərinin nümayişindən öncə Yazıçılar Birliyinin katibi İ.Fəhmi çıxış edərək Vaqif Poeziya Günlərinin əhəmiyyətini vurğulayıb, keçirilən tədbirlərdən danışıb. Deyib ki, "Vaqif dünyası" tamaşasını hazırlayanda əsas məqsəd məhz görkəmli şairin müasir Azərbaycan ədəbi dilinin formalaşmasında və ümumiyyətlə, ümumtürk kontekstində yerini göstərmək olub: "Tamaşanın əsas məğzi ondan ibarətdir ki, doğrudan da, həmin dövrdə türk xalqlarının ədəbiyyatı paralel inkişaf edib və yaradıcı insanlar bir-birini çox rahat başa düşüb, bir-birinin ruhunu hiss ediblər. Təqdim olunan səhnə əsərində də bu mesajları aydın şəkildə görmək mümkündür".




Sonra tamaşa təqdim olunub. Səhnə əsərinin kompozisiyası Vaqiflə Vidadinin dialoqu üzərində qurulsa da, digər şairlərin şeirləri, musiqilər, muğam parçaları da daxil edilib. Təqdimatda istifadə olunan səhnə geyimləri də kompozisiyanın yaratdığı hissləri gücləndirərək tamaşaçıları bir neçə əsr bundan əvvələ aparıb. Tamaşa maraqla qarşılanıb.

Bununla da söz-sənət beşiyimiz, "Türk dünyasının mədəniyyət paytaxtı", azadlığına qovuşandan sonra sürətlə tikilən, qurulan Şuşa şəhərimiz möhtəşəm bir tədbirə ev sahibliyi etdi. Mədəniyyət paytaxtımızın daha böyük növrağı hələ qarşıdadır...




# "Yüksəliş" müsabiqəsinin final mərhələsi yekunlaşıb

Xəbər verildiyi kimi, 14-16 iyul tarixlərində Bakı Ekspo Mərkəzində 3-cü "Yüksəliş" müsabiqəsinin final mərhələsi keçirilib.

Final mərhələsinin üçüncü günündə iştirakçılar Təşkilat Komitəsinin üzvləri və idarəçi rəhbərlərin müşahidəsi ilə "Azərbaycan arzusu" keysi üzrə tapşırıqları yerinə yetiriblər. İdarəçi rəhbərlərin suallarına cavab verən iştirakçılar keys üzrə təqdimatdan sonra qiymətləndiriliblər. Hər masaya təyin edilmiş mentor komandada öz səriştəsi ilə seçilən bir finalçıya qiymətləndirmə balı təqdim edilib. Təqdim edilən mentor balı iştirakçıların ümumi balına əlavə olunub.

Bununla da 3-cü "Yüksəliş" müsabiqəsinin finalı başa çatıb. Müsabiqə qaliblərinin adlarının iki iş günü ərzində açıqlanacağı bildirilib.

Qeyd edək ki, finalda müsabiqənin əvvəlki mərhələlərini uğurla başa vuran 109 nəfər iştirak edib. İştirakçıların 8 səriştəsi (strateji düşüncə, nəticələrə yönümlülük, komanda işi bacarığı, kommunikasiya bacarıqları, dəyişikliklərin və innovasiyaların idarə edilməsi, liderlik, sosial məsuliyyət və effektivliyin idarə edilməsi) ekspertlər və idarəçi rəhbərlər tərəfindən qiymətləndirilib.

Xatırladaq ki, 2023-cü il fevralın 17-dən qeydiyyatına start verilən 3-cü "Yüksəliş" müsabiqəsinə 13 min 474 nəfər müraciət edib. Müsabiqə 5 mərhələdən – qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir. Müsabiqənin 20 qalibini bir il ərzində idarəçi rəhbərlərdən – böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə təsis olunub. İlk müsabiqə 2020-2021-ci illərdə gerçəkləşib. 2-ci "Yüksəliş" müsabiqəsi 2022-ci ildə keçirilib.

# BMA-nın məktəb-studiyası məzununun solo konserti

Beynəlxalq müsabiqələr laureatı, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) Orta ixtisas musiqi məktəb-studiyasının məzunu, hazırda N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Konservatoriyasının tələbəsi olan Teymur Kazımov iyulun 14-də Bakıdakı Rus Evində solo konsert proqramı ilə çıxış edib.



Tədbiri sənətşünaslıq üzrə fəlsəfə doktoru, BMA-nın baş müəllimi Alyona İnyakina aparıb. Müşayiəti BMA-nın konsertmeysteri Dilarə Kərimova edib.

Bakıdakı Rus Evinin rəhbəri İrek Zinnurov çıxışında Teymuru uğurları münasibətilə təbrik edib, istedadlı gənclərin yetişdirilməsində müəllim və valideynlərin mühüm rolunu vurğulayıb.

T.Kazımov hələ BMA-nın məktəb-studiyasında oxuduğu illərdə beynəlxalq müsabiqələrin qalibi olmaqla özünü təsdiqləməyi bacarıb. Onun parlaq nailiyyətlərindən biri görkəmli Azərbaycan bəstəkarı Cövdət Hacıyevin qızı Pərvin Muradova-Dilbazinin təşkil etdiyi "Florida Keys" VIII beynəlxalq musiqi müsabiqəsində qələbəsi olub. Bu il "Heydər Əliyev İli" çərçivəsində təşkil olunan müsabiqədə Teymur bir neçə klassik əsər, eləcə də Müslüm Maqomyevin məşhur "Azərbaycan" ("Baharlı yurdum", sözləri Nəbi Xəzrinindir) mahnısını təqdim edib və Qran-prini qazanıb. Teymur bu qələbəsini BMA-nın məktəb-studiyasının yaradıcısı və 43 il direktoru olmuş, bu il vəfat etmiş professor Tərlan Seyidovun xatirəsinə həsr edib.

Bakıdakı Rus Evindəki konsertdə Teymur Kazımov məşhur operalardan parçalar ifa edib. Proqrama onun sənət dostlarının (Əməkdar artist Anton Ferştandt, Azərbaycan Dövlət Akademik Filarmoniyası Xor Kapellasının artisti Fərhad Ələkbərov, beynəlxalq müsabiqələr laureatı Kamilla İmanova, Akademik Opera və Balet Teatrının xor artisti Ruslan Persan) ifasında estrada mahnıları da daxil edilib.

Diplomatik korpusun nümayəndələri, mədəniyyət xadimləri və sənətsevərlərin maraqla izlədiyi konsert alqışlarla yekunlaşıb.

**Aytən İbrahimova**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Lənkəran şəhərindəki Dairəvi qala bərpa edilir

## Mədəniyyət naziri aparılan işlərlə tanış olub

Mədəniyyət naziri Adil Kərimli iyulun 14-də Lənkəran Mədəniyyət Mərkəzində vətəndaşların qəbulundan sonra şəhərdəki Dairəvi qalaya (Zindan qala) baxış keçirib. Nazir qalada aparılan təmir-bərpa işləri ilə tanış olub, müvafiq tapşırıqlar verib.



Qeyd edək ki, qalanın dam örtüyünün çökməsi ilə əlaqədar abidə qəzalı vəziyyətə düşüb. Qala sonuncu dəfə 2008-ci ildə bərpa olunub. Lakin sonradan tarixi abidənin damında yaranmış problem tikiliyə ciddi ziyan vurub.



Hazırda Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən abidənin bərpası istiqamətində işlərə başlanılıb. Qalanın ətrafında və içərisində təmizlik, abadlıq işləri görülür, eyni zamanda abidənin mühafizəsi ilə bağlı zəruri tədbirlər həyata keçirilir. Abidəni təbii aşınmadan qorumaq üçün müvəqqəti dam örtüyü quraşdırılıb.

Məlumat üçün bildirək ki, XVIII əsrin ikinci yarısına aid Dairəvi qala Lənkəran qala sisteminin cənub tərəfdən dayaq məntəqəsi olub. XIX əsrin əvvəlində bölgə rus qoşunları tərəfindən işğal olunduqdan sonra tikili həbsxana kimi istifadə edilib. Qala Nazirlər Kabinetinin 2001-ci il 2 avqust qərarı ilə yerli əhəmiyyətli tarixi abidə hesab olunur və dövlət tərəfindən mühafizə edilir.

# Şanlı Zəfərə aparan yol

Qəbələ rayon Mədəniyyət Mərkəzində Milli Qəhrəman, şəhid general-mayor Polad Həşimovun xatirəsinə həsr olunmuş "Şanlı Zəfərə aparan yol" adlı tədbir keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Milli Qəhrəmanın və ərazi bütövlüyümüz uğrunda canlarından keçən bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rayon İcra Hakimiyyətinin başçısının müavini Ətayə Osmanova və başqaları çıxış edərək Milli Qəhrəmanın döyüş yolundan, Prezident İlham Əliyev tərəfindən ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən



söz açıb, 2020-ci ilin 12-16 iyul tarixlərində Ermənistanın törətdiyi hərbi təxribatın qarşısının qətiyyətlə alınmasının 44 günlük Vətən müharibəsi öncəsi böyük əhəmiyyətini diqqətə çatdırıblar.

Mədəniyyət mərkəzinin əməkdaşları Polad Həşimova həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdiriblər. Sonda iştirakçılar Milli Qəhrəmana həsr olunmuş videoçarxı izləyiblər.

# "Yayı kitabla keçirək!" layihəsində roman müzakirəsi

Sumqayıt Gənclər Kitabxanasında "Yayı kitabla keçirək!" layihəsi çərçivəsində amerikalı yazıçı İrvinq Stounun (1903-1989) "Yaşamaq yanğısı" romanının müzakirəsi keçirilib.



Yazıçının 120 illik yubileyi münasibətilə keçirilən müzakirədə kitabxananın müdir vəzifəsini müvəqqəti icra edən Leyla Mahmudova İ.Stounun həyat və yaradıcılığı haqqında məlumat verib. Qeyd edib ki, "Yaşamaq yanğısı" dünya şöhrətli hollandiyalı rəssam Vinsent van Qoqun (1853-1890) həyatından bəhs edir.

Ədib haqqında videoçarx nümayiş olunduqdan sonra kitabxananın oxucusu Aylin Nəbiyeva romanın xülasəsini təqdim edib. Oxucuların sualları cavablandırılıb.

Sonda M.İsmayılov adına Laçın rayonu Cicimli kənd tam orta məktəbinin kitabxana müdiri İlhamə Məmmədova tədbirin təşkilinə görə təşəkkürünü bildirib.

# Azad edilmiş ərazilərdə turizm sahəsinə investisiyalarla bağlı danışıqlar aparılır

Hazırda Azərbaycana gələn turistlərin sayı pandemiyadan əvvəlki sərhədlərin açıq olduğu vaxtlardakı qədərdir. Ölkəmizdə karantin rejimi olduğu üçün quru yolla gələn turistlərimiz yoxdur, yəni turistlər yalnız hava yolu ilə gələ bilirlər.

Bunu Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev bildirib.

O qeyd edib ki, qonşu ölkələrdən quru yolla gələn turistləri müvəqqəti olaraq itirmişik. Operativ Qərargahın quru sərhədlərinin açılması ilə bağlı qərarını gözləyirik.

DTA sədri əlavə edib ki, işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı üçün bir neçə ölkə - MDB ölkələri, Türkiyə, İsrail və Rusiya ilə danışıqlar aparılır: "İşğaldan azad edilmiş ərazilər də daxil olmaqla turizmə investisiyaların yatırılması ilə bağlı həm yerli, həm də xarici investorlarla danışıqlar aparırıq. Hələ ki, Şəki şəhərinə bir neçə investor maraq göstərir. Bunlar müəyyən tarixi abidələrin bərpa edilib işlənməsi ilə bağlıdır".

# Vətəndaşların növbəti qəbulu Lənkəranda keçirilib

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, mədəniyyət naziri Adil Kərimli iyulun 14-də Lənkəran şəhərində vətəndaşları qəbul edib.

Qəbuldan öncə Lənkəran şəhər Heydər Əliyev Mərkəzinə baxış keçirilib. Ümummilli lider Heydər Əliyevin Lənkəran şəhərində ucaldılmış abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad olunub.

Mədəniyyət Mərkəzində keçirilən qəbulda əsasən Lənkəran şəhəri, Astara və Lerik rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Mədəniyyət Nazirliyinin məsul əməkdaşlarının da iştirakı ilə keçirilən görüşdə vətəndaşların müxtəlif mövzularda müraciətləri dinlənilib. Müraciətlər əsasən işlə təmin olunma, mədəniyyət sahəsi və şəhid adına parkın qeydiyyata alınması ilə bağlı təkliflər, ortaya çıxan problemlərin həlli və digər məsələlərlə bağlı olub.

Vətəndaşları ayrı-ayrılıqda dinləyən nazir bütün müraciətlərin araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.



Görüşdə şəhid ailələri və qazilərin qaldırdıqları məsələlərə xüsusi həssaslıqla yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

# 54 il öncə qoyulan etibarlı təməl





Ulu öndər Heydər Əliyevin sovet Azərbaycanında rəhbərliyə gəlişinin 54-cü ildönümü münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində tədbirlər keçirilib.

Qarabağ RMİ və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayondakı Heydər Əliyev parkında konsert proqramı keçirilib. Konsertdə rayon Mədəniyyət Mərkəzi və Uşaq musiqi məktəbinin kollektivləri çıxış ediblər.

Tərtər rayon Heydər Əliyev Mərkəzində isə əlamətdar ildönümü münasibətilə dəyirmi masa keçirilib. Əvvəlcə iştirakçılar Ulu öndərin 100 illiyinə həsr olunmuş kitab sərgisinə baxıb, onun həyat və siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Çıxışlarda qeyd olunub ki, müasir Azərbaycanın bugünkü sosial-iqtisadi inkişafının təməli Ümummilli lider tərəfindən qoyulub.

***

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Ümummilli liderə həsr olunan şeirlər səsləndirilib, videoçarx nümayiş olunub. Qeyd edilib ki, 1969-cu ildən başlayan inkişaf və tərəqqi Azərbaycanın gələcək tərəqqisinin əsası olub.

***

Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının Xidmət şöbəsində təşkil olunan tədbirdə Heydər Əliyevin Azərbaycanda kitabxana sahəsində göstərdiyi diqqət və qayğını, kitabxanaçılarla görüşünü əks etdirən videoçarx nümayiş olunub.

***

Hacıqabul rayon Heydər Əliyev Mərkəzində təşkil edilən dəyirmi masada çıxış edənlər bildiriblər ki, müasir Azərbaycanın 30 ildən artıq müddətdə dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir mərhələsi Ümummilli liderin adı ilə bağlıdır.

***

İsmayıllı rayon Heydər Əliyev Mərkəzində "14 iyul 1969-cu il: tərəqqi yolunun başlanğıcı, müstəqil və qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün" adlı tədbir keçirilib. Çıxış edənlər Ulu öndərin xalqımızın taleyində silinməz izlər qoyduğunu vurğulayıblar. Sonra "Əsrin adamı" filmi nümayiş olunub.

***





Zərdab rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Heydər Əliyevin həyat yolu və siyasi fəaliyyəti haqqında məlumat verilib. Daha sonra Heydər Əliyevin 100 illik yubileyi münasibətilə mərkəzdə nümayiş etdirilən sərgilərə baxış olub.

***

Gəncə şəhər Heydər Əliyev Mərkəzi və şəhər MKS-nin 16 nömrəli kitabxana filialının təşkilatçılığı ilə keçirilən tədbirdə "14 iyul tərəqqi yolunun başlanğıcı", "1969-1982-ci illərdə Gəncə şəhərinin inkişafında Heydər Əliyevin xidmətləri", "Heydər Əliyev və Azərbaycan muzeyləri" və s. mövzularda çıxışlar dinlənilib.

Qazax rayonundakı Heydər Əliyev Mərkəzində də İcra Hakimiyyəti ilə birgə Ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlişinin ildönümü qeyd edilib. Tədbirdə çıxışlar olub, Ümummilli liderin həyat və siyasi fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

**Hazırladı: N.Məmmədli**

# Uşaq İncəsənət Festivalının II mərhələsi yekunlaşmaq üzrədir

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi, "BP Azerbaijan" şirkətinin baş sponsorluğu ilə keçirilən Uşaq İncəsənət Festivalının ikinci – regional mərhələsi sona çatmaq üzrədir.

Mil-Muğan Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları üzrə iştirakçılar arasında keçirilən II mərhələ Sabirabad rayon Heydər Əliyev Mərkəzi və rayon Mədəniyyət Mərkəzində reallaşıb.

3-5 iyul tarixlərində rayon Heydər Əliyev Mərkəzində rəssamlıq, dekorativ-tətbiqi sənət və rəqəmsal incəsənət nominasiyaları üzrə ümumilikdə 75 nəfər iştirakçı münsiflər qarşısında öz istedad və bacarıqlarını nümayiş etdirib.

3-13 iyul tarixləri ərzində Sabirabad rayon Mədəniyyət Mərkəzində piano ifaçılığı, klassik




həmçinin xor nominasiyası üzrə 2 xor qrupu iştirak edib.

Qeyd edək ki, adıçəkilən rayonlardan festivalın II mərhələsinə 17 nominasiya üzrə 493 nəfər iştirak hüququ qazanıb.

***

14 nominasiyada – piano ifaçılığı, klassik simli alətlər ifaçılığı, Azərbaycan xalq çalğı alətləri ifaçılığı, akademik vokal, estrada oxuma, xor, xanəndəlik sənəti, aşıq sənəti, solo milli rəqs, milli rəqs ansamblı, aktyorluq, bədii qiraət, dekorativ-tətbiqi sə-

rayonları və Şirvan şəhəri üzrə festivalın II mərhələsi Salyan Dövlət Kukla Teatrında reallaşıb.

***

Mərkəzi Aran RMİ-nin əhatə etdiyi Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab rayonları və Mingəçevir şəhəri üzrə festivalın II mərhələsi başa çatıb.

Ağdaş şəhər Habil Əliyev adına 1 nömrəli Uşaq musiqi məktəbi və rayon Heydər Əliyev Mərkəzində keçirilən festivalın II mərhələsində 10, 11, 12 iyul tarixlərində Azərbaycan xalq çalğı alətləri ifaçılığı, dekorativ-tətbiqi sənət, rəssamlıq və rəqəmsal incəsənət nominasiyaları üzrə iştirakçılar öz istedad və bacarıqlarını ortaya qoyublar.

Ümumilikdə Mərkəzi Aran RMİ üzrə festivalın II mərhələsində fərdi qaydada 484 nəfər, qrup olaraq 29 kollektiv iştirak edib.





nəfəs alətləri ifaçılığı, xalq çalğı alətləri ifaçılığı, akademik vokal, estrada oxuma, xanəndəlik sənəti və aşıq sənəti nominasiyaları üzrə ümumilikdə 258 nəfər,

Şirvan-Salyan RMİ üzrə festivalın II mərhələsinə yekun vurulub. Bu mərhələdə region üzrə ümumilikdə 206 nəfər iştirakçı qabiliyyətini göstərib. İştirakçılar

nət və rəssamlıq nominasiyalarında çıxış ediblər.

Qeyd edək ki, regional idarənin əhatə etdiyi Biləsuvar, Salyan, Neftçala, Hacıqabul

Xatırladaq ki, festivalın iyulun 3-də başlanan regional mərhələsi ölkəmizin 14 iqtisadi-coğrafi rayonunun 14 şəhəri üzrə 26 məntəqədə keçirilir.

# Mirzə Babayevin doğum günündə məzarı ziyarət edilib



İyulun 16-da Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, Xalq artisti, müğənni Mirzə Babayevin (1913-2003) anadan olmasının 110-cu ildönümü tamam oldu.

Bu münasibətlə Mədəniyyət Nazirliyinin nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, sənətkarın ailə üzvləri II Fəxri xiyabana gələrək Mirzə Babayevin xatirəsini yad edib, məzarı üzərinə gül dəstləri qoyublar.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov qeyd edib ki, Mirzə Babayev istedadı ilə xalqımızın məhəbbətini qazanan böyük sənətkarlarımızdandır. O, Azərbaycan estrada musiqisinə mühüm töhfələr verib, səsi və ifaçılıq məharəti ilə öz orijinal üslubunu yaradıb, musiqimizi xarici ölkələrdə də layiqincə təmsil edib. Mirzə Babayev cismən bizimlə olmasa da, onun yaradıcılığı əbədi yaşayacaq.




Teatr və kino aktyoru, Xalq artisti Rafiq Əzimov bildirib ki, Mirzə Babayev ömrünün yarıdan çoxunu musiqi sənətinə həsr edib. O hərtərəfli sənətkar idi. İstedadlı aktyor kimi də milli kino tariximizə adını yazdırıb, "Dərviş Parisi partladır", "Telefonçu qız", "Romeo mənim qonşumdur", "Qorxma, mən səninləyəm!" və digər ekran əsərlərində rəngarəng obrazlar qalereyası yaradıb.

Xalq artisti, kinorejissor Vaqif Mustafayev, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr vəzifəsini müvəqqəti icra edən Xalq artisti Hacı İsmayılov, Xalq artisti, kinorejissor Oqtay Mirqasımov, Xalq artisti, müğənni Gülyanaq Məmmədova görkəmli sənətkarla bağlı xatirələrini danışıb, onun bənzərsiz yaradıcılığından söz açıblar.

Sənətkarın yaxın qohumu tarix elmləri doktoru, professor Dilarə Seyidzadə, nəvələri Ülvi Seyidzadə və Emin Babayev çıxış edərək Mirzə Babayevin xatirəsinə göstərilən yüksək ehtirama görə Mədəniyyət Nazirliyi və mərasim iştirakçılarına təşəkkürünü bildiriblər.

Xatırladaq ki, Mirzə (Mirzəağa) Əbdülcabbar oğlu Babayev 1913-cü il iyulun 16-da Bakı şəhərinin Maştağa kəndində anadan olub. İlk ali təhsilini Sənaye İnstitutunun Memarlıq fakültəsində alıb. Müğənnilik fəaliyyətinə 40-cı illərin əvvəlində görkəmli bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində başlayıb. 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına (indiki BMA) – professor Bülbülün sinfinə daxil olub. 1953-cü ildə konservatoriya təhsilini başa vuran istedadlı müğənni ürəyəyatımlı səsi, gözəl ifa tərzi, dərin musiqi duyumu və yüksək səhnə mədəniyyəti ilə tamaşaçıların böyük rəğbətini qazanıb.

Sənətkar müxtəlif illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi estrada orkestrinin, Azərbaycan Dövlət Filarmoniyasının, Azərbaycan Dövlət Konsert Birliyinin solisti olub. Teleradionun "qızıl fond"unda onun ifasında saxlanılan çoxlu sayda mahnı var.

Görkəmli sənətkar musiqi sənətimizə verdiyi töhfələrə görə "Əməkdar artist", "Xalq artisti" fəxri adlarına layiq görülüb. "Şöhrət" ordeni ilə təltif edilib, Prezidentin fərdi təqaüdçüsü olub. 2003-cü il yanvarın 13-də vəfat edib.

**Nurəddin**

# Dövlət Kukla Teatrı mövsümü başa vurub

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı özünün 91-ci mövsümünü iyulun 14-də başa vurub.

Yaradıcı kollektiv teatrsevərlər, balaca tamaşaçılar üçün bu son günü də yaddaqalan etmək üçün əlindən gələni edib.

Cari mövsümdə hazırlanan baxımlı səhnə nümunələrindən biri – "Üç donuz balası" böyük marağa səbəb olub. Mövsümün son tamaşası da anşlaqla keçib.

Tamaşanın səhnələşdirəni və quruluşçu rejissoru Saida Haqverdiyeva, quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Vüqar Camalzadə, mahnı mətnlərinin müəllifi Sevinc Nuruqızıdır.

Nümayişin ardınca teatrın mövsüm ərzində məhsuldar fəaliyyəti ilə seçilən əməkdaşları – aktyorlar, rejissor və texniki işçilər müxtəlif nominasiyalar üzrə təşəkkürnamələrlə təltif olunublar.



# Şəkinin teatr mövsümü

Zəngin tarixi və sənət yolu olan Şəki Dövlət Dram Teatrı bu mövsümü də dolğun, yaradıcılıq baxımından rəngarəng yaşayıb.

Ümummilli lider Heydər Əliyevin 100 və Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyi münasibətilə Mədəniyyət Nazirliyinin təşkil etdiyi silsilə tədbirlərdə Şəki teatrı da iştirak edib.

10 mart – Milli Teatr Günündə Mədəniyyət Nazirliyinin "Teatrda bir gün" layihəsi üzrə "açıq qapı" günü keçirilib və gənc rejissor Elvin Nurinin quruluşunda türk müəllif Toyğun Orbayın "21:15 qatarı" tamaşasının premyerası olub. Yaradıcı kollektiv bu səhnə əsəri ilə Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) birgə həyata keçirdiyi "Qonaq teatr" layihəsinə də qatılıb. İyunun 5-də ATXİ-nin səhnəsində nümayiş olunan tamaşa maraqla qarşılanıb.



Qeyd edək ki, tarixi 1879-cu ilə gedib çıxan Şəki teatrı 1933-cü ildə dövlət statusu alıb, həmin il M.Ə.Sabir adına Nuxa Dövlət Dram Teatrı adı ilə fəaliyyətə başlayıb. "Qonaq teatr" layihəsi üzə tamaşa nümayişindən sonra Şəki Dövlət Dram Teatrı milli teatr sənətinin inkişafındakı xidmətlərinə və dövlət statusu almasının 90 illiyi münasibətilə ATXİ-nin fəxri fərmanı ilə təltif edilib.

Yubiley ilində teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimlinin quruluşunda braziliyalı yazar Gilyerme Fiqeyredonun "Ezop" tamaşasının premyerası da olub.

Tarixi mövzulara repertuarında mütəmadi yer verən teatrda iyun ayında rejissor Orxan Həmidlinin quruluşunda Xəqani Əliyevin dramı əsasında səhnələşdirilmiş "Çələbi xan" tamaşası geniş ictimaiyyətə təqdim edilib. Tamaşa görkəmli tarixçi alim, akademik Yaqub Mahmudovun 80 illik yubileyinə həsr edilib.

Şəki teatrı təmsilçiləri ölkədaxili qastrol marafonunda da fəal olub. Kollektiv 22 iyunda baş rejissor Mirbala Səlimlinin quruluşunda Jan Batist Molyer və Mixail Bulqakovun əsərləri əsasında hazırlanan "Xəstəlik xəstəsi və ya yaşasın teatr!" adlı tamaşa (tragifars) ilə Mingəçevir Dövlət Dram Teatrının səhnəsində çıxış edib. Teatr cari mövsümə iyulun 20-də Azərbaycan klassik dramaturgiyasının banisi M.F.Axundzadənin "Hekayəti-xırs-quldurbasan" komediyası əsasında eyniadlı tamaşa ilə başa vuracaq. Tamaşanın quruluşçu rejissoru Orxan Həmidli, quruluşçu rəssamı və geyim üzrə rəssamı Sahib Əhmədov, baletmeysteri Çingiz Novruzəliyev, musiqi tərtibatçısı Zeynəb Orucovadır.

**Həmidə**

# AKİ-nin "KinoLab" layihəsinin qalibi bəlli olub

Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) növbəti "KinoLab" layihəsinin pitçinq mərhələsi başa çatıb.

AKİ-dən verilən məlumata görə, builki layihədə 8 gənc rejissor iştirak edib. Murad Allahverdinin "Kür" sənədli film layihəsi münsif heyəti tərəfindən qalib seçilib.

"KinoLab" layihəsi sənədli kinoda ilk addımlarını atan və ya film ideyası olanlar üçündür. Gənc rejissorlar üçün yaradılan kino emalatxanasının kursunda iştirak etmək ödənişsizdir. Bundan başqa, seçilən hər bir iştirakçıya öz yeni və ya ilk film tizerini çəkmək üçün mümkün mentorluq proqramı təşkil edilir.

Qeyd edək ki, Murad Allahverdi AKİ-nin təşkil etdiyi "Qəlbdən qələmə" ssenari inkişafı üzrə yay məktəbi və "Kino istehsalı A-dan Z-yə" rejissorluq kursları layihələrinin iştirakçısı olub.

# Cənub səhnəsinin təsviri

Lənkəran Dövlət Dram Teatrı mövsümü üç yeni tamaşa ilə başa vurur. Bunlar "Yaşayan ölü" (müəllif Könül Məmmədova, rejissor Anar Babalı), "Müqəssir" (müəllif Əbdürrəhim bəy Haqverdiyev, rejissor Abdulla Elşadlı) və "Cəmilə" (müəllif Çingiz Aytmatov, rejissor İmran Əli Qurban) tamaşalarıdır. Bu üçlükdən ikisi ("Müqəssir" və "Cəmilə") daxili baxışdan sonra artıq repertuara daxil edilib.



Teatrda Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Q.Nəcəfzadənin "İki 23 arasında" (quruluşçu rejissor Emil Əskərov) pyesi də səhnələşdirilir. Premyera yeni mövsümün ilk ayına (sentyabr) nəzərdə tutulub.

Teatrın istehsalatında iki mono tamaşa da var. Bunlardan biri Avstriya dramaturqu Piter Turrininin "Bu da axırı" pyesinin motivləri əsasında hazırlanan və ilk baxışı bu günlərdə olan eyniadlı tamaşa (rejissor Abdulla Elşadlı) və oktyabr ayında təhvili gözlənilən Təranə Vahidin "Mən toz dənəsiyəm" (rejissor Emil Əskərov) əsərinin tamaşasıdır.

Teatrın bölgədəki tamaşaçılar qarşısında çıxışları da intensivləşib və bununla bağlı xüsusi layihə hazırlanıb. İyun ayından "Heydər Əliyev İli" və Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi münasibətilə "Uçan səhnə" adlı layihəyə start verilib. Layihə çərçivəsində ilk tamaşa 8 iyunda Lənkəran rayonunun Bəliton kəndində göstərilib.

Kollektiv Məmmədhüseyn Əliyevin "Prokuror" (quruluşçu rejissorlar Oruc Qurbanov və Anar Babalı) tamaşası ilə Biləsuvar rayonunda da səfərdə olub.

Teatr cari mövsümünü də səfərdə başa vurub. "Prokuror" tamaşası iyulun 17-də lerikli teatrsevərlər üçün nümayiş olunub.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (48)

### 1994-cü il 24 oktyabr

Prezident Heydər Əliyev respublikanın Xalq artisti, uzun illər Naxçıvan Dövlət Dram Teatrında çalışmış Zəroş Həmzəyevanı 70 illik yubileyi münasibətilə təbrik edib.

### 1994-cü il 1-3 noyabr

Prezident Heydər Əliyev dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi münasibətilə yubiley tədbirlərində iştirak etmək üçün Türkiyədə səfərdə olub.

Heydər Əliyev noyabrın 1-də Ankarada Bilkənd Universitetinin şəhərciyində Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş şənliklərin təntənəli açılışında çıxış edib.

*"...Bizim xalqlarımız dünya mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya sivilizasiyasını elm, mədəniyyət sahəsində dəyərli əsərlərlə zənginləşdirmişlər. Xalqlarımızın böyük şəxsiyyətləri sırasında Məhəmməd Füzulinin xüsusi yeri var.*

*Füzuli irsinin qiyməti əvəzsizdir. Azərbaycan xalqı Məhəmməd Füzulinin yaratdığı əsərlərin təsiri altında əsrlər boyu və xüsusən XX əsrdə öz mədəniyyətinin inkişafında böyük nailiyyətlər əldə etmişdir. Füzulinin "Leyli və Məcnun" poeması əsasında Azərbaycanın böyük bəstəkarı, dahi insanı Üzeyir Hacıbəyov Şərq aləmində, Türk dünyasında ilk professional opera yaratmışdır. Füzulinin əsərlərinin təsiri altında Azərbaycanın yazıçıları, alimləri, bəstəkarları, rəssamları əsərlər yaratmış, respublikamızın mədəniyyətini inkişaf etdirmiş, dünya mədəniyyətinə böyük töhfələr vermişlər. Bunlar hamısı Məhəmməd Füzulinin bizə bəxş etdiyi böyük irsdir, Azərbaycan xalqının, Türk dünyasının, türk xalqlarının bu günü və gələcəyi üçün böyük örnəkdir...*

*Bugünkü bayram günündə Füzulinin yubileyinin burada qeyd olunması və Azərbaycandan böyük bir nümayəndə heyətinin buraya gəlməsi də bizim dostluq və qardaşlığımızın rəmzidir... Yaşasın ədəbiyyatımız, mədəniyyətimiz, mənəviyyatımız! Yaşasın sarsılmaz Türkiyə - Azərbaycan dostluğu!".*

***

Noyabrın 2-də isə Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində dahi Azərbaycan şairinin xatirəsinə həsr olunmuş mərasimdə çıxış edib.

*"Azərbaycanda ilk dəfə müstəqil demokratik dövlət yarananda – 1918-ci ildə də bu, Türkiyə ilə bağlı, Türkiyənin təsiri altında, Türkiyənin köməyi ilə olubdur. Ondan sonrakı dövrdə biz müəyyən siyasi, ideoloji səbəblərə görə, düşdüyümüz vəziyyətə görə Türkiyədən ayrı olduğumuz halda qəlbimiz həmişə bir olub, Füzulinin şeirləri Türkiyədə də, Azərbaycanda da səslənib. Tək Füzuli yox, bizim xalqlarımızın Füzuli kimi böyük sənət adamları, şəxsiyyətləri bizi ayrılmağa qoymayıbdır...*

*Bu iki gün müddətində Füzulinin yaradıcılığına verilən qiymət, eyni zamanda müstəqil Azərbaycan dövlətindən buraya gəlmiş heyətə göstərilən hörmət və ehtiram bizi həm sevindirir, həm də bizdə böyük təşəkkür hissi oyadır. Biz bunu bir tərəfdən təbii hesab edirik. Çünki biz dost və qardaşıq. Bir millətik və bir-birimizlə çox bağlıyıq...*

*...Gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm – türk dilini öyrənirdim. Müəllim də var idi, bir müddət - iki-üç il mənə türk dili öyrədirdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin rəsmləri indi də gözümün qabağındadır... Həyat elə gətirdi ki, mən gəlib Türkiyənin Böyük Millət Məclisində söz demək imkanı aldım... Biz bu gün yenə də Türkiyənin Böyük Millət Məclisindəyik... Azərbaycanda nə qədər adamlar bu günlərin həsrəti ilə yaşadı, lakin gəlib bu günləri görə bilmədi. Ancaq biz xoşbəxtlərdənik ki, bu günləri gəlib görmüşük. Türkiyə ilə Azərbaycanın bərabərliyini, dostluğunu görürük, bu dostluğu daha da inkişaf etdirmək üçün fəaliyyət göstəririk. Bu gün Türkiyənin Böyük Millət Məclisinin salonunda millət vəkilləri ilə birlikdə Türkiyə-Azərbaycan dostluğunu bayram edirik. Füzuli sənətinin bayramını keçiririk...".*

Səfər zamanı Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəl və digər rəsmilərlə görüşlər də keçirib.

### 1994-cü il 17 noyabr

Prezident Heydər Əliyev Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitq söyləyib.

*"...Rusiya və Azərbaycan xalqları gözəl dostluq, əməkdaşlıq ənənələrinə, mədəniyyət sahəsində qarşılıqlı münasibətlərin zəngin tarixinə malikdirlər. Bu işdə xalqlarımıza həyatın bütün mərhələlərində mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri kömək etmişlər. Bu gün biz müəyyən müddətdən sonra yenidən birlikdəyik və dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyini birlikdə qeyd edirik. Şairin yubiley ilini UNESCO Füzuli ili elan etmişdir. Füzulinin yubileyi Azərbaycanda, bir çox digər ölkələrdə geniş qeyd edilir, lakin bu, Azərbaycan xalqı üçün xüsusilə dəyərli və əhəmiyyətlidir ki, Füzulinin yubileyi Moskvada – zəngin mədəni və ədəbi ənənələri olan şəhərdə də qeyd olunur.*

*... Bu salonda Azərbaycan mədəniyyəti korifeylərinin yubileyləri dəfələrlə bayram edilmişdir. Lakin bugünkü gecə xüsusi əhəmiyyətə malikdir. Bu gün Rusiya paytaxtında Məhəmməd Füzulinin 500 illiyi, müstəqil Azərbaycan dövləti şairinin yubileyi qeyd olunur. Bunun xüsusi mənası var. Elə bunun özü də ona dəlalətdir ki, Azərbaycan və rus xalqlarını, Rusiya və Azərbaycan xalqlarını birləşdirən dostluq telləri möhkəm və pozulmazdır, bu telləri heç nə qıra bilməz. Bu tellər əbədi olacaq və gündən-günə möhkəmlənəcəkdir...".*

Səfər zamanı Heydər Əliyev Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinlə görüşüb.

**Hazırladı: Vüqar Orxan**

***(davamı var)***

# “Azərbaycan kinosunun gələcəyinə nikbin baxıram...”

## Cəmil Quliyev: “Bu gün dünya kinosunda mövzu və dramaturgiya problemləri var”

**Onu hələ uşaq yaşlarımızdan Kərimov kimi tanımışıq, daha sonra kino xadimi Cəmil Quliyev olaraq sevmişik. Mədəniyyətin müxtəlif sahələrində çalışaraq hər zaman məsuliyyətlə bu işlərə öz töhfəsini verən kinorejissor, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Film Fondunun direktoru professor Cəmil Quliyevin bu günlərdə 60 yaşı tamam oldu. Yubilyarla rəhbərlik etdiyi Dövlət Film Fondunda görüşüb söhbətləşdik.**

*– Cəmil müəllim, 60 illik ömrün yaradıcılıqla zəngin yollarında çoxsaylı pillələr qalxmısınız. Kino, televiziya, pedaqoji iş, ictimai fəaliyyət... Bütün bu işlərin öhdəsindən gəlmək çətin olmayıb ki?*

– Mən öz həyat və yaradıcılıq yoluma nəzər salanda, təbii ki, özüm-özümə sual verirəm: nəyə nail ola bildim? Bu hesabatla da sanki həyatının müəyyən bir hissəsinə yekun vurursan. Onu deyə bilərəm ki, bu illər ərzində həyatımın ən mənalı mərhələlərindən biri “Azərbaycanfilm” kinostudiyasında çalışdığım dövr olub. Düzdür, mən orada az çalışdım, kinostudiya tənəzzülə uğradı, bir müddət fəaliyyəti dayandı. Buna baxmayaraq, 12 il ərzində biz həm sənədli, həm bədii, həm də “Mozalan” satirik jurnalı üçün süjetlər çəkdik. Çox maraqlı bir dövr idi. Kinostudiyanın qaynayıb-qarışan dövrü idi. Sonra, Allah rəhmət eləsin, dostum, görkəmli kinorejissor Tofiq İsmayılov məni indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə dəvət etdi. 1987-ci ildən orada çalışmağa başladım və bu gün də pedaqoji fəaliyyətimi davam etdirirəm. 1990-cı ildə bu təhsil ocağında Kino və televiziya kafedrası yarandı və Tofiq müəllim bir müddət həmin kafedraya rəhbərlik etdi. O, Türkiyəyə gedəndən sonra təxminən 10 il kafedranın rəhbəri oldum. Daha sonra Rüstəm İbrahimbəyovun “Kino məktəbi” yarandı və iki il də o məktəbin direktoru oldum.

Nəhayət, məni Dövlət Film Fonduna dəvət etdilər. Fonddakı fəaliyyətim həyatımın ən mənalı dövrlərindən oldu. Bu illər ərzində Azərbaycan kino irsinin qorunub saxlanılması, fondun zənginləşdirilməsi ilə bağlı müəyyən işlər görməyə çalışdıq. Həyatımın ən maraqlı dövrlərindən biri də Professional Kinorejissorlar Gildiyasının nəzdində fəaliyyət göstərən Beynəlxalq Audiovizual Festivalında direktor kimi çalışdığım mərhələni qeyd edə bilərəm. Bu festival 2000-2006-cı illərdə fəaliyyət göstərdi. Biz o zaman bu gün kinoda olan bir çox insanlara dəstək ola bildik. Bu festivalın çox gözəl bir məramı var idi, ətrafına gəncləri toplayırdı və bir çox ölkələrdən bura gənclər gəlirdi. Sonra maliyyə problemlərindən bu layihə davam etdirilmədi.

*– Televiziyada fəaliyyətiniz də zəngin olub...*



– Doqquz ilə yaxın televiziya sahəsində fəaliyyət göstərmişəm: üç il AzTV-nin “Mədəniyyət” kanalında, altı il də İctimai Televiziyada. Mən yaradıcılığı inzibati işdən üstün tuturam. Ona görə də ilkin sadaladığım dövr mənim üçün çox maraqlı və əzizdir.

*– Bəs kino yolunuz necə başladı? Bu sevgi haradan qaynaqlanır?*

– Kino sahəsinə marağım atamla bağlıdır. Atam Elşad Quliyev 1966-1990-cı illərdə Azərbaycan Televiziyasında çalışıb. Sonra da televiziya tənqidçisi kimi fəaliyyət göstərirdi. Məqalələri dərc olunur, kitabları işıq üzü görürdü. O, kinonu, teatrı çox sevdiyi üçün biz tez-tez yeni film və tamaşaları izləməyə gedirdik. Həmin dövrdə Bakıda fəaliyyət göstərən “Nizami”, “Azərbaycan”, “Vətən”, Cəfər Cabbarlı adına kinoteatrlar sanki bir məbəd idi. Məsəl üçün, bu gün dünya kinosunun şedevrlərinə çevrilmiş fransız, ingilis və italyan filmləri tez-tez nümayiş olunardı. Biz də hamısını izləməyə çalışardıq. Həmin dövrdən kinoya böyük marağım yarandı. Eyni zamanda teatr tamaşalarını da sevirdim. Azərbaycanın iki görkəmli teatr rejissoru Mehdi Məmmədov və Tofiq Kazımov atamla yaxın dost idilər. Onlar da hər zaman premyeralara bizi dəvət edirdilər. Düzdür, o zaman teatra uşaqları buraxmırdılar, amma elə bil mənim bir qədər immunitetim var idi. Sakit oturub sona kimi böyük maraqla səhnədə baş verənləri seyr edirdim. Bu iki sevgi arasında mən nədənsə teatrı yox, kinonu seçdim. Burada, təbii ki, təsadüfün də rolu oldu. Vaxtilə Şamil Mahmudbəyov məni “Şərikli çörək” filminə çəkməli idi. Sonra müəyyən səbəblərdən mən həmin filmdə rol ala bilmədim. Daha sonra Oqtay Babazadə məni “Leyla və dostları” filminə çəkməli idi. Onda da məni məktəbdən buraxmadılar, alınmadı. Amma qonşumuz, atamla dost olan görkəmli rejissor Arif Babayev tez-tez bizə gəlirdi. Həmin vaxtlar o, İçərişəhərdə yaşayırdı. Deyirdi ki, səni filmə çəkəcəyəm. Günlərin birində bu reallaşdı. “Alma almaya bənzər filmi”nin ikinci rejissoru Əşrəf Mamayev evimizə zəng edib məni sınaq çəkilişlərinə dəvət etdi. Mən Kərimov obrazını sevə-sevə ifa etdim. Sonra hətta çəkiliş vaxtı dərsdən qaldığım üçün oxuduğum 134 saylı məktəbdən məni xaric etdilər. Bir ay dərslərdə iştirak etməmişdim. Bundan sonra təhsilimi 20 nömrəli məktəbdə davam etdirməli oldum. Yəni kinoya sevgi prosesində həyatımda çox maraqlı hadisələr olub.

*– Elə bu sevgi və maraq da yolunuzu Ümumittifaq Kinematoqrafiya İnstitutundan saldı...*

– Bəli, Kinematoqrafiya İnstitutuna daxil oldum. Bu proses də maraqlı keçdi. Atam vəzifədə olduğu üçün mənə təyinat, yəni göndəriş vermirdilər. Deyirdilər bu, qanunaziddir. Göndəriş fəhlə və qulluqçular üçün nəzərdə tutulmuşdu. O zaman atam SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyən Heydər Əliyevə müraciət etdi və Ulu öndər dəstək oldu, mənə yer ayırdılar. Ona görə də mən kinematoqrafiyaya gəlişimə görə Heydər Əliyevə borcluyam.

> “Alma almaya bənzər filmi”nin çəkilişi vaxtı dərsdən qaldığım üçün oxuduğum 134 saylı məktəbdən məni xaric etdilər. Bir ay dərslərdə iştirak etməmişdim. Sonra təhsilimi 20 nömrəli məktəbdə davam etdirməli oldum.

*– Bakıya qayıtdıqdan sonra çalışdığınız ilk film hansı oldu?*

– “Azərbaycanfilm”ə gəldim. Bir az çətinliklərim oldu. Bir neçə il film ala bilmədim. Allah Ceyhun Mirzəyevə rəhmət eləsin. “Mozalan”ın bədii rəhbəri idi. O, məni iki ilə yaxın kinojurnalda rejissor kimi saxladı. Daha sonra kinostudiyaya Ramiz Fətəliyev direktor gəldi. Filmlərimə baxdı və mənə film tapşırdı. “Cansıxıcı əhvalat” filmini lentə aldım. Sonra da “Söyüdlərin sarı işığı”nı çəkmək istədik. Lakin SSRİ dağıldı, maliyyə dayandı. Biz filmi çəkə bilmədik və heyət işsiz qaldı. Çox acınacaqlı vəziyyət idi. Kinostudiyanın qapıları bağlı idi. O zaman əmim, görkəmli aktyor Hacıbaba Bağırov bizə dəstək oldu. Təklif etdi ki, o vaxtkı Musiqili Komediya Teatrının repertuarında olan “Şirbalanın məhəbbəti” tamaşasını film kimi lentə alaq. O, filmi maliyyələşdirməyə sponsor da tapmışdı. İndi bəzən bu filmi bəsit süjetinə görə tənqid edirlər, amma bizim üçün o dövrdə əsas məqsəd həmin görkəmli sənətkarları lentə almaq idi. Film böyük dramaturgiyaya malik olmasa da, satirik-komediya janrında, yüngül formada çəkildi.

*– 35 illik pedaqoji fəaliyyət. Heç “Bu illəri yaradıcılığa sərf edə bilərdim”, – deyə peşmanlıq çəkdiyiniz an olubmu?*

– Bu 35 ildə mən kino sənətini tələbələrə aşılamışam. Marağı olan və olmayan da olub. Kinoya heç marağı olmayıb, təsadüfən gəlib düşənləri də görmüşəm. Amma biz maraq yaratmışıq və onlar kinoda qalıblar. Bu illər ərzində əsəbiləşdiyim və bütün zəhmətim hədərə gedir deyə fikirləşdiyim hallar da olub bəzən. Bu yaxınlarda ad günümlə bağlı çoxsaylı təbriklər aldım. Təbriklərin çoxu tələbələrimdən idi. Demək, mən kiminsə yaddaşında qalmışam və zəhmətim hədər getməyib.

*– Cəmil müəllim, bu il kinomuz üçün yubileylərlə əlamətdardır...*

– Bəli, bu il kinomuzun 125, “Azərbaycanfilm”in 100, Dövlət Film Fondunun isə 30 illik yubileyidir. Fond 15 il “Qələbə” kinoteatrında fəaliyyət göstərib. 2008-ci ildən bu yeni binadayıq. Fond Ulu öndər Heydər Əliyevin imzası ilə yaradılıb. Azərbaycan kino salnaməsinin qorunub saxlanılması, toplanılması əsas vəzifəmizdir. Bu vəzifəni layiqincə yerinə yetirməyə çalışırıq. Fond üçün yeni bina inşa olundu və 2009-cu ilin aprel ayında Prezident İlham Əliyev və Mehriban xanım binanın açılışında iştirak etdilər.

*– Çəkmək arzusunda olduğunuz mövzu varmı?*

– Arzusunda olduğum mövzu üçün yaxşı maliyyə və texnika, yaradıcı heyət lazımdır. Qismət olsa, nə zamansa çəkilər. Amma tələm-tələsik hansısa işi ərsəyə gətirmək istəmirəm.

*– Azərbaycan və dünya kinosundan yüksək qiymətləndirdiyiniz filmlər hansılardır?*

– Azərbaycan kinematoqrafiyasında mənim üçün ilk kinorejissor Səməd Mərdanov və onun Moskvada aldığı mükəmməl təhsil böyük önəm kəsb edir. Eyni zamanda o, Azərbaycanda möhtəşəm bir filmi “Kəndlilər” filmini nəzərdə tuturam – yaradıcılarından biri olub. Bu filmi yüksək qiymətləndirirəm. Dünya kinosunda isə Çarli Çaplinin “Böyük şəhərin işıqları” və “Sirk” filmi, eləcə də Federiko Fellininin “Səkkiz yarım” filmi çox əzizdir. Bu filmdə sənət adamının keçirdiyi daxili iztirab və sarsıntılar öz əksini tapıb. Filmin qəhrəmanı rejissordur və o, filmi çəkərkən bilmir necə başlayacağını. Bu film mənim üçün örnək ekran əsəridir. İroniya, facia var bu filmdə. Həyatımın ən çətin anlarında, yaxud da ayda heç olmasa bir dəfə bu filmə baxıram və təskinlik tapıram.

*– Azərbaycan kinosunun keçmişi və bu günündən danışsaq...*

– Azərbaycan kinosunda qiyməti olmayan çox nadir filmlər var. Abbas Mirzə Şərifzadə, Qəmər Salamzadə, Səməd Mərdanov, Mikayıl Mikayılovun filmləri. Düzdür, bu işlər bugünkü filmlərlə rəqabətə girə bilməz. Filmə zamanın prizmasından baxmaq lazımdır. 1925-ci ildə lentə alınan filmi 2023-cü ildə çəkilən ekran əsəri ilə müqayisə etmək düzgün deyil. Kino inkişafda olan sənətdir. Bu gün isə kinematoqraf çox çətin, çox ziddiyyətli və ecazkar bir sənətdir. Uzun inkişaf yolu keçən dünya kinosunda bu gün mövzu və dramaturgiya problemləri var. Biz bu istiqamətdə işləməliyik. Deyə bilərsiniz ki, bu gün bizdə Qarabağ mövzusu var. Bəli, biz bu gün mütləq Qarabağ mövzusunda filmlər lentə almalıyıq. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında Qələbə çaldı, düşməni darmadağın etdi. Bu haqda həm sənədli, həm də bədii filmlər lentə alınmalıdır. Hərbi-vətənpərvərlik mövzusu üçün bizdə böyük bir zəmin var.



O ki qaldı digər mövzulara, bu mövzuların axtarışında problemlər var. Sanki mövzu tükənir. Melodramlar, psixoloji dramlar və s. mövzu ilə bağlı geniş axtarışlar olmalıdır. Müasir kinomuz da bu gün axtarışdadır, nəsillərin dəyişməsi baş verib. Kinonun mədəniyyəti də dəyişir. Bizim nəsil bu dəyişikliklərə bəzən razılaşmır. Festivallarla da bağlı narazılıqlar olur. Avropa kino dairələrinin isə öz maraqları var. Lakin mən Azərbaycan kinosunun gələcəyinə nikbin baxıram.

*– Kərimovdan sonra aktyor kimi təklif aldığınız filmlər oldu?*

– Bəli, Oleq Səfərəliyevin 1988-ci ildə çəkdiyi “Murad – Sad” filmində, Ziya Şıxlinskinin bir filmində, adı indi yadıma düşmür, Gülbəniz Əzimzadənin “Torpağın duzu”, Şamil Nəcəfzadənin “Hotdoq” bədii filmində və qısametrajlı filmlərində rol almışam. Heç vaxt qarşıma böyük rollar oynamaq planı qoymadım. Eldar Quliyevin “Nə gözəldir bu dünya” və Rasim Ocaqovun “Otel otağı” filmlərində çəkilmişəm. Amma tam əminliklə deyirəm ki, mən böyük rolların da öhdəsindən gələ bilərəm. Çünki daxilimdə aktyor potensialım güclüdür və mən aktyor ifa tərzinin sistemini də yaxşı bilirəm. Təbii ki, rejissorlar məni hansı rolda görüblərsə, böyük məmnuniyyətlə ifa etmişəm. Hətta Moskvada M.Qorki adına kinostudiyada lentə alınan “Görüş” filmində mən ikinci rol yaratmışam. Buna o qədər də əhəmiyyət vermirəm. Aktyorluq mənim üçün bir hobbidir. Son dəfə Yavər Rzayevin “Həsən Seyidbəyli” filmində rol aldım.

*– Kino sizin üçün nədir?*

– Kino mənim üçün böyük bir zaman və sirləri açılmamış ecazkar bir aləmdir. Təsəvvür edin, işıqlar sönür, qaranlıq zalda proyektorun işığı yanır və tamam başqa bir dünyaya düşürsən. Fransız kinoşünas Mozen deyirdi ki, kino möcüzədir. İnsan zamanı çəkir qoyur qutuya və lazım olanda götürüb baxır. Fotoqrafiya zaman pəncərəsidir. Kino da mənim üçün kəşf olunmamış bir dünyadır. İnanıram ki, o, sona qədər kəşf olunmayacaq.

*– Sonda ənənəvi bir sual: yenidən həyata gəlsəydiniz, yenə də rejissor olardınızmı?*

– Yəqin ki, hə. Amma bir çox məqamlara yenidən baxardım. Bir də əgər dünyaya yenidən gəlsəydim, həkim olmaq istərdim.

*– Maraqlıdır, niyə həkim?*

– Bəzən sevdiyimiz insanların xəstəliyini görəndə onlara kömək edə bilmirik. Amma ailədə həkimin olması çox böyük bir dəstəkdir. Anam 2020-ci ildə koronavirusdan rəhmətə getdi. Həkim olsaydım, bütün biliklərimi səfərbər edib bəlkə də onu xilas edərdim. Həkim olanda sən ailəndəki insanların sağlamlığının keşiyində dura bilirsən. Qardaşım həkimdir, amma o da uzun illərdir bu sahədə çalışır.

*– Sizə təşəkkür edirəm. İnşallah, 10 il sonra – 70 illik yubileyinizdə elə “Mədəniyyət” qəzeti üçün yenidən həmsöhbət olarıq.*

– Bu gözəl arzu mənim çox xoşuma gəldi. Təşəkkür edirəm. Ən böyük arzum isə nəvəmi böyütmək, uğurlarını görməkdir.

**Lalə Azəri**

Barış Manço – 80

# Türkiyəni dünyada tanıdan sənətçi

## Beş qitədə, onlarla ölkədə olmuşdu...

**Bu il Türkiyənin tanınmış müğənnisi, bəstəkar, televiziya aparıcısı Barış Mançonun (Mehmet Barış İsmail Hakkı oğlu Manço; 1943-1999) anadan olmasının 80-ci ildönümüdür. Şeir və bəstələri ilə musiqisevərlərin böyük rəğbətini qazanan sənətkar həm də uşaqların sevimlisi idi. O, türk musiqisinin dünyada təbliğinə böyük töhfələr vermiş, “Türkiyə Cümhuriyyətinin Dövlət sənətçisi” fəxri adına layiq görülmüşdü.**

Barış Manço 1943-cü il yanvarın 2-də İstanbulun Üsküdar rayonunda musiqiçi ailəsində anadan olub. O, doğulanda İkinci Dünya müharibəsinin qızğın çağları idi. Buna görə də ailəsi ona Mehmet Barış adını qoyur. Musiqiçi, pedaqoq, yazıçı olan anası Riqqət Uyanık oğlunun sənətə gəlməsində mühüm rol oynayıb. Məktəbli ikən gitara çalmağı öyrənir, eyni zamanda anasından piano dərsləri alır. Mahnı bəstələməyə ilk dəfə “Qalatasaray” liseyində oxuyan zaman başlayır. “Kafadarlar” və “Harmoniyalar” adlı iki həvəskar musiqi qrupu yaradır və liseydə səhnəyə çıxardır.

1959-cu ildə atası dünyasını dəyişir. Barış “Qalatasaray” liseyindən ayrılaraq Şişli rayonundakı “Tərəqqi” liseyində təhsilini davam etdirir. Məzun olduqdan sonra Belçika Kral Akademiyasında təhsili alır. 1967-ci ildə Barış Fuad Gülər və Mazhar Alansonla birgə “Qayğısızlar” musiqi qrupunu yaradır. Üç il sonra qrup üzvlərinin yolları ayrılır. Elə həmin il o, Fransada yeni qrup yaradır. Bu kollektivlə işləri uğurlu alınır, 50-dən artıq konsert verirlər.

Barış Manço 1978-ci ildə Lalə Çağlar adlı xanımla ailə həyatı qurur. Doğukan və Batıkan adlı iki oğulları dünyaya gəlir.

### 19 yaşında ilk musiqi albomu

Barış Manço “Twist in USA” adlı ilk musiqi albomunu (val) 1962-ci ildə, 19 yaşı olarkən yazdırıb. Albomda iki mahnı yer alıb: “Twist in USA” və “The Jet”. Sənətçinin ümumilikdə 50-dən çox albomu çıxıb.

Barış Mançonun dillər əzbəri olan, bu gün də sevilərək dinlənilən mahnılarının arasında “Gülpəmbə”nin xüsusi yeri var. Çəhrayı yanaqlı mənasını verən “Gülpəmbə” mahnısının sözləri B.Mançonun özünə, musiqisi isə Əhməd Güvəncə aiddir. Müğənni müsahibələrinin birində “Sözüm məclisdən kənar” albomuna daxil olan və çıxdığı gündən böyük məşhurluq qazanan bu mahnını 1957-ci ilin Ramazan bayramında dünyasını dəyişən nənəsi Nimet Manço üçün yazdığını bildirib.

### “7-dən 77-yə”, “Ekvatordan qütblərə”...

Müğənni bir-birindən gözəl nəğmələri ilə qəlblərə yol tapmaqla yanaşı, televiziya məkanında da şöhrət qazanıb, xüsusilə uşaqların sevimlisinə çevrilib. Barış Manço 1988-ci ildə “7-dən 77-yə” adlı proqramla tamaşaçılar qarşısına çıxıb. Ailə, uşaq və əyləncə proqramı olan “7-dən 77-yə” yalnız bazar günləri efirdə olur. “Adam olacaq çocuq” şüarı ilə 10 il yayımlanan veriliş 378 proqramdan sonra 1998-ci ildə fəaliyyətini dayandırır.

Müğənninin “Ekvatordan qütblərə” adlı televiziya layihəsi də böyük maraqla qarşılanıb. Öz qrupu ilə birlikdə beş qitədə 100-dən çox bölgəyə gedən sənətçi ümumilikdə 500 min km-dən artıq yol qət edib.

### Saqqalı üzündən başına gələnlər...

Barış Manço zahiri görkəmi, geyim-kecimi ilə də seçilib. O, tamaşaçıların yaddaşında nurlu siması, uzun saçı və saqqalı ilə əbədiləşib. Onun bığ-saqqal saxlamağının da bir səbəbi olub. Müğənni 1967-ci ildə Hollandiyada avtomobil qəzasına düşür və dodağında dərin çapıq yaranır. Bundan sonra o, bığ-saqqal saxlamağa başlayır.

Sənətkarın uzun saçları məmləkətində bəzi adamların xoşuna gəlməyib, təhdidlərə məruz qalıb. Monqol musiqiçilərlə birlikdə yaratdığı “MançoMonqol” adlı qrupla Anadolu turnesinə çıxır. Qrupun son dayanacağı Kütahya şəhəri idi.



Burada müğənninin imicini sevməyənlər konsertdən sonra tur avtobuslarına hücum edirlər. Xoşbəxtlikdən xəsarət alan olmur.

### Azərbaycan sevgisi

200-dən çox mahnı bəstələyən Barış Manço ingilis və fransız dillərini də mükəmməl bilib. Həyatı boyunca 300-dən artıq mükafata layiq görülən sənətkar Azərbaycanı da ürəkdən sevib. Onun Azərbaycan sevgisi uzun illərə dayansa da, ölkəmiz müstəqilliyini bərpa etdikdən, qardaş Türkiyə ilə əlaqələr bərpa olunduqdan sonra Bakıya gəlmək imkanı reallaşıb...

Müğənnin Azərbaycana növbəti gəlişi 1996-cı ildə Novruz bayramına təsadüf edir. Prezident Heydər Əliyev Novruz şənliyində xalqımıza təbriklərini çatdırdıqdan sonra meydan musiqiçilərə verilir. Barış Manço da ifasını təqdim edir. Ulu öndər onu yanına çağırıb tanış olur. Bu fürsətdən istifadə edən müğənni Heydər Əliyevə TRT üçün müsahibə vermesini istəyir. Həmin ilin aprel ayında Barış Mançonun iştirakı ilə TRT-nin Prezident Heydər Əliyevlə müsahibəsinin çəkilişləri gerçəkləşir.

Sənətkar axırıncı dəfə Bakıya 1998-ci ildə gəlir. Ölkəmizdə ilk və son konserti də o zaman baş tutur...

### “Unutma ki dünya fani...”

Müğənninin təkcə “Gülpəmbə” mahnısı deyil, “Can bədəndən çıxmayınca...”, “Domates, biber, patlıcan” (“Pomidor, bibər, badımcan”), “Yaz, dostum” və digər mahnıları təkcə Türkiyə və Azərbaycanda deyil, onlarla ölkədə müxtəlif dillərdə ifa olunub, sevilib.

Barış Manço 1999-cu il yanvarın 31-də gecə saatlarında İstanbulun Moda küçəsindəki evində infarkt keçirir və xəstəxanaya aparılır. Həkimlərin səylərinə baxmayaraq, məşhur nəğməsində “Unutma ki dünya fani...” deyən milyonların sevimlisi əbədiyyətə qovuşur. Fevralın 3-də Atatürk Mədəniyyət Mərkəzinə gətirilərək vida mərasimi keçirilir. İstanbulun Kanlıca qəbiristanlığında torpağa tapşırılır.

Sənətkarın 18 il ailəsi ilə birgə Moda küçəsində yaşadığı ev sonradan muzeyə çevrilib.

**Hazırladı: N.Məmmədli**

# “Tanrının xilas əli” filminin təqdimatı olub

## 51 il sonra eyni mövzuya qayıdış…



Bakı Gənclər Mərkəzində “Tanrının xilas əli” bədii-sənədli filminin təqdimat mərasimi təşkil olunub.

Ekran əsəri 1958-ci ildə Bakıda, Xəzər dənizində batan azyaşlı qızları xilas edərkən həlak olan məktəbli Tofiq Hüseynovun qəhrəmanlığından bəhs edir.

Filmin ssenari müəllifi və rejissoru Babək Abbaszadə bildirib ki, vaxtilə igidliyi təkcə respublikamızda deyil, bütün keçmiş SSRİ-də yayılmış Bakı məktəblisi (indiki 132-134 nömrəli təhsil kompleksinin şagirdi) Tofiq Hüseynov haqqında yeni film çəkməkdə məqsəd 17 yaşında əbədiyyətə qovuşmuş qəhrəmanı müasir dövrün gənclərinə tanıtmaqdır.

Qeyd edək ki, bu hadisə həmin 1972-ci ildə görkəmli rejissor, Xalq artisti Eldar Quliyevin çəkdiyi “Var olun, qızlar...” bədii filminə mövzu olub. Babək Abbaszadə “Tanrının xilas əli” bədii-sənədli filmi ilə növbəti dəfə, daha real faktlar və şahid xatirələri ilə qəhrəmanın həyatına işıq tutmağa çalışdıqlarını bildirib.

Filmin operatoru Anar Seyidov, məsləhətçisi Əməkdar incəsənət xadimi Cəmil Quliyev, icraçı prodüseri Qənirə Qurbanlıdır. Tofiq Hüseynov rolunu Ceyhun Abasov oynayıb.

Ekran əsərində Tofiq Hüseynovun qısa, lakin mənalı həyatı, qəhrəmanlıq hekayəsi bədii-sənədli formada təqdim edilib. 65 il əvvəl baş vermiş hadisənin canlı şahidləri xatirələrini bölüşüblər.

Tofiq Hüseynovun obrazını səsləndirmiş Əməkdar artist Şövqi Hüseynov, qəhrəmanın ailə üzvləri, yaxınları çıxışlarında filmi yüksək qiymətləndirib, böyük mənəvi əhəmiyyəti olan ekran əsəri kimi daha geniş nümayiş olunması təklifini irəli sürüblər.

# AzMİU Elmi şurasının tədris ili üzrə son iclası keçirilib

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Elmi şurasının 2022/2023-cü tədris ili üzrə son iclası keçirilib.

Universitetin rektoru professor Gülçöhrə Məmmədova gündəlikdə duran məsələləri diqqətə çatdırıb.

Tədris işləri üzrə prorektor professor Akif Qasımov 2022-2023-cü tədris ilinin yekunları barədə geniş hesabatla çıxış edib. O, tədris prosesi, payız və yaz semestri imtahanlarının təşkili, fakültə və kurslar üzrə keyfiyyət və kəmiyyət göstəriciləri barədə məlumat verib. Qeyd edib ki, imtahan sessiyasının obyektiv keçirilməsi və tələbələrin biliklərinin hərtərəfli yoxlanılması üçün bütün şərait yaradılıb. Tələbə valideynlərinin, KİV nümayəndələrinin iştirakı ilə imtahanlara ictimai baxış keçirilib.



Elmi şura üzvlərinin, müvafiq struktur rəhbərlərin məruzə ilə bağlı fikirləri dinlənilib, müvafiq qərarlar qəbul edilib.

Sonra Mühəndis sistemləri və qurğuların tikintisi kafedrasının müdiri, Elmi şuranın qərarlarının yoxlanılması komissiyasının sədri professor Nurməmməd Məmmədovun hesabatı dinlənilib.

İclasda həmçinin Layihələrin idarə edilməsi kafedrasının yaradılması qərara alınıb, yeni yaradılmış Maliyyə, Əqli mülkiyyətin idarə edilməsi və Layihələrin idarə edilməsi MBA proqramlarının tədris planları, Kompozisiya materialları, məmulatları və konstruksiya materialları magistr proqramı, eləcə də bir sıra magistr proqramlarında edilmiş dəyişikliklərə bağlı müzakirə aparılıb.

İclasın sonunda rektor professor Gülçöhrə Məmmədova Beynəlxalq Memarlar İttifaqının təşkilatçılığı ilə Danimarkanın Kopenhagen şəhərində keçirilən Dünya Memarlar Konqresində AzMİU müəllim və tələbələrinin iştirakından danışıb. Rektor fakültə və kafedraları fəaliyyət istiqamətlərinə uyğun nüfuzlu konqreslərdə iştirak etməyə çağırıb.

# Yaradıcılıqda şölələnən innovativ çalarlar

Sənətkar bir əsər yaratmaq üçün ruhunu, hisslərini, yaşantılarını, sevinclərini, arzularını, ən önəmlisi də zamanını sevə-sevə sərf edir. Nizami Gəncəvinin dediyi kimi, hər gizli xəzinədən bir dürr çıxarmaq üçün səy göstərir. Sənətin məziyyətlərini bilən, onları öz orijinal üslubu ilə kombinə etməyə çalışan gənc rəssam Rauf Şamilzadə də müasir rəngkarlığımızın zəhmətsevər müəlliflərindəndir. Onun yaradıcılığının rəhnində avanqard tərz, innovativ üslub dayanmaqdadır. Ənənəvilik ilə çağdaşlıq arasında, keçmiş ilə gələcək arasında xüsusi yaradıcı yanaşma tərzi ilə seçilən rəssam qəlblərə və duyğulara ünvanladığı hər bir əsərində öz fəhmini məharətlə ifadə edir.



Rəssamın mənəvi və bədii səciyyəyə malik əsərləri arasında “Payız”, “Boz”, “Finiş”, “Gül ruhu”, “Tərk edilmiş”, “Su altındakı ev”, “Yasəmənlər”, “Tənha”, “Dəvətsiz qonaqlar”, “Yad planetdə musiqi”, “Fırtınadakı gəmi”, “Kloun”, “Qaranlıq”, “Qoca” kimi bir çox kompozisiyaları mövcuddur.

Deyirlər ki, həqiqi sənət əsəri qarşısında adətən zaman aciz qalır. Biz də adlarını sadaladığımız bu əsərlərin qarşısında dayandığımızda həm zaman, həm də məkan anlayışını unuduruq. Bu kompozisiyalar bizə müəllifin duyğu və düşüncə burulğanını xatırladır, faş edir…

Rauf Sabir oğlu Şamilzadə 1986-cı ildə Bərdə şəhərində doğulub. 2004-cü ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına daxil olub, daha sonra hərbi xidmətə yollanıb. Hərbi xidməti başa çatdıqdan sonra 2006-cı ildə Bakıya qayıdan gənc rəssam bu səfər zərgərlik sənətinin sirrlərini öyrənmək üçün köhnə “Bakı” univermağında sənətkarlarla birgə fəaliyyət göstərib. Rəngkarlığa bağlılığı əslə qeyb olmayan gəncin bu sənətə qayıtmasında Əməkdar rəssam Vüqar Muradovun çox böyük rolu olub.

Bəzən asimmetrik formalar, rəng ləkələri, maraqlı ornamentlər ilə öz üslubunun estetikasını müəyyənləşdirməyə çalışan rəssamın yenilikçi və fərqli bədii ifadə tərzi xüsusi harmonik ab-hava ilə daha da zənginləşir. Öz estetikası və fəlsəfəsi “dəbli” vizual görkəmə malik olan rəssamın perspektivli və mündəricəli mövzu seçimi çox maraqlıdır.

Məsələn, “Fırtınadakı gəmi” əsəri ilk baxışdan melanxolik ab-havası ilə seçilir. Bulanıq, sezilməyən bir kompozisiyanın mərkəzində tənha qalmış və fırtına ilə mübarizə aparmağa çalışan gəmi görürük. Əsərdən dinamika, ritm və yetəri qədər gərgin aura duyulmaqdadır. Müəllifin kompozisiyaya verdiyi fərqli enerji izləyicilərin diqqətini özünə cəlb edir. Əsər sanki tamaşaçıları həmin ana sürükləyir. Rəssam gəminin taleyini, aqibətini izləyicilərin öz təxəyyüllərində sonlandırmağı üçün xüsusi bədii “həmlə”lərdən istifadə edir.

Müəllifin yaradıcılığında seçilən başqa maraqlı əsər “Tərk edilmiş” isimli kompozisiyadır. Yenə melanxolik ab-hava ilə icra olunan bu əsərdə maraqlı kontrast mövcuddur. Tənha və tərk edilmiş, dağılmaq üzrə olan ev ilə rəssamın seçdiyi şux və canlı palitra ziddiyyətli, bir o qədər də həmahəng görünməkdədir. Məhz bu “həmlə” kompozisiyanı mənalandıran, ona xüsusi maraq aşılayan əsas amillərdən biri hesab oluna bilər.

Boşuna demirlər ki, rəng həm ondan istifadə edən rəssam üçün, həm də onu qavrayan və qiymətləndirən tamaşaçı üçün ən yaxşı təəssürat vasitəsidir. Rauf Şamilzadə də bu təəssüratın gücündən bacarıqla istifadə edir. O, rəngləri, rəng kombinasiyalarını çox gözəl tanıyır, onlardan yerindəcə istifadə edə bilir.

Bunun ən gözəl nümunəsi rəssamın “Gül ruhu” əsərində özünü büruzə verməkdədir. Fərqli hisslər doğuran rəngin gücünə bu kompozisiyada dolğun şəkildə müraciət edən rəssamın seçdiyi pastel tonlarındakı rənglər tamaşaçıda, həqiqətən də, çiçəklərin zərif ruhun mövcudluğu təəssüratını oyadır. Titrək fırça vuruşları ilə icra olunan “Gül ruhu”, həqiqətən də, kətanda mistik bir şəkildə kölgələnir…

Rauf Şamilzadənin kolorit seçiminin gözəl kətan üzərində təzahürlərindən biri də “Payız” əsəridir. Kompozisiyada xəzan yeli, “qızıl” payız havası qabarıq şəkildə vurğulanıb. Sanki çırağı xatırladan rəng və forma seçimi rəssam tərəfindən ustalıqla tamamlanıb. Payız havasında yanıb-qızaran ağac fiquru, bozumtul, yarı tutqun səma və xəzana dönən yarpaqlara əbədi yuva olan torpaq təsviri bədii-estetik tutumlu sənət nümunəsinə çevrilib.

Gənc rəssamın əl işlərində daima bədii ifadə axtarışında olduğu, öz üzərində çalışdığı, təkrarı və təqlidi sevmədiyi hiss olunur. Yaradıcılığı innovativ çalarlarla seçilən gənc istedadlar Azərbaycan rəngkarlığının sabahıdır. Biz də Rauf Şamilzadəyə sənət yolunda bol-bol uğurlar arzu edirik.

**Nigar Hətəmova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

## Xatirə təqvimi 19-21 iyul

### Azərbaycan

**19 iyul 1915** – Xalq artisti, opera müğənnisi (bariton) Ağababa Balağa oğlu Bünyadzadə (1915 – 17.12.1974) Bakının Kürdəxanı kəndində doğulub. 1938-ci ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**19 iyul 1946** – Əməkdar rəssam Asif Hüseyn oğlu Rzayev (Asif Azərelli; 1946 – 4.9.2022) Bərdə rayonunun Uğurbəyli kəndində anadan olub. “Dədə Qorqud”, “Qoca qarabağlı” və s. əsərləri xüsusilə məşhurdur. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında çalışıb.

**19 iyul 2011** – Prezident İlham Əliyev Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Mirzə İbrahimovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**19 iyul 2017** – Prezident İlham Əliyev Xalq artisti, milli teatr və kino sənətinin görkəmli nümayəndəsi Məhluqə Sadıqovanın 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**19 iyul 2019** – Prezident İlham Əliyev görkəmli dilçi alim, türkoloq, akademik, Dövlət mükafatı laureatı Məmmədağa Şirəliyevin 110 illik yubileyi haqqında sərəncam imzalayıb.

**20 iyul 1903** – Əməkdar incəsənət xadimi Bəxşi Həsən oğlu Qələndərli (1903 – 14.9.1985) Xankəndidə doğulub. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında baş rejissor, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında rejissor işləyib.

**20 iyul 1933** – Əməkdar rəssam Məmmədəli Namazəli oğlu İsmayılov (1933 – 21.8.2010) Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında quruluşçu rəssam işləyib.

**20 iyul 1936** – Tarixçi, arxeoloq, AMEA-nın müxbir üzvü Vəli Hüseyn oğlu Əliyev (1936–2020) Şəki rayonunun Daşbulaq kəndində anadan olub.

**20 iyul 1946** – Əməkdar mədəniyyət işçisi, rejissor Rafiq Ağahüseyn oğlu Dadaşov (1946-2017) Bakıda anadan olub. Bir sıra filmlərin (“Yol əhvalatı”, “Qətl günü” və s.) ikinci rejissoru olub, sənədli filmlər çəkib.

**20 iyul 1948** – Xalq artisti, aktyor, rejissor Ramiz Hacıağa oğlu Əzizbəyli (1948 – 9.6.2021) Bakıda anadan olub. Filmlərdə, televiziya tamaşalarında maraqlı rollar oynayıb, “Pirverdinin xoruzu”, “Bəxt üzüyü”, “Yalan” bədii filmlərinə quruluş verib. Bir çox filmlərin səsləndirilməsində iştirak edib.

**20 iyul 2001** – Prezident Heydər Əliyev məşhur xanəndə, Xalq artisti Xan Şuşinskinin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**20 iyul 2021** – Əməkdar mədəniyyət işçisi, teatr və kino xadimi Zemfira Baba qızı Babayeva (17.11.1954 – 2021) vəfat edib.

**21 iyul 1950** – Xalq artisti Məmmədbağır Bağırzadə (1950 – 30.10.2005) Bakının Nardaran kəndində doğulub. Xalq və bəstəkar mahnılarının unudulmaz ifaçısı, populyar mahnıların (“Kimlərə qaldı dünya?”, “Yadıma düşdü”) müəllifi olub.

**21 iyul 1964** – Əməkdar mədəniyyət işçisi Nairə Hafiz qızı Sadıxova (1964 – 4.9.2021) Bakıda doğulub. Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktor müavini olub.

**21 iyul 1978** – “Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında” Azərbaycan SSR Qanunu qəbul olunub. Qanun 1979-cu il yanvarın 1-dən qüvvəyə minib.

**21 iyul 1981** – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi görkəmli şair, dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul edib. Qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeylərinin yaradılması, ədibin adının əbədiləşdirilməsi ilə bağlı digər tədbirlər nəzərdə tutulmuşdu.

### Dünya

**19 iyul 1834** – Fransız rəssamı və heykəltaraşı Edqar Deqa (Edgar Degas – Hilaire Germain de Gas; 1834-1917) anadan olub.

**19 iyul 1898** – Alman filosofu və sosioloqu Herbert Markuze (Herbert Marcuse; 1898-1979) anadan olub.

**19 iyul 1893** – Rus şairi Vladimir Mayakovski (1893 - 14.4.1930) Gürcüstanın Kutaisi bölgəsinin Baqdadi kəndində doğulub. 1906-cı ildə ailəsi Moskvaya köçüb. Poemaları: “Şalvarlı duman”, “150 000 000”, “Vladimir İliç Lenin” və s. Satirik pyesləri: “Misteriya Buff”, “Hamam” və s.

**19 iyul 1938** – Gürcüstanın Xalq artisti, tanınmış estrada müğənnisi, aktyor Vaxtanq Konstantinoviç Kikabidze (1938 – 15.1.2023) anadan olub.

**20 iyul 1304** – İtaliya intibahının görkəmli nümayəndəsi, şair Françesko Petrarka (Francesco Petrarca; 1304-1374) anadan olub.

**20 iyul 1864** – İsveç şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1931) Erik Karlfeldt (Erik Axel Karlfeldt; 1864-1931) anadan olub.

**20 iyul 1882** – Alman filosofu Nikolay Hartman (Nikolai Hartmann; 1882-1950) anadan olub. Fəlsəfədə yeni (tənqidi) ontologiyanın banisi sayılır.

**20 iyul 1895** – Macar və amerikan rəssamı, fotoqraf və bəstəkar, konstruktivizm cərəyanının nümayəndəsi Laslo Mohoy-Nad (Laszlo Moholy-Nagy; 1895-1946) anadan olub.

**20 iyul 1924** – Rus rejissoru, SSRİ Xalq artisti Tatyana Mixaylovna Lioznova (1924-2011) anadan olub. Filmləri: “Baharın on yeddi anı” teleserialı, “Karnaval” və s.

**21 iyul 1893** – Alman yazıçısı Hans Fallada (əsl adı Rudolf Wilhelm Friedrich Ditzen; 1893-1947) anadan olub. Əsərləri: “Anton və Herda”, “Sonra nə, balaca adam?”, “Canavarlar içində canavar” və s.

**21 iyul 1899** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1954) Ernest Heminquey (Ernest Miller Hemingway; 1899 – 2.7.1961) anadan olub. Əsərləri: “Kişisiz qadınlar”, “Əlvida, silah”, “Əcəl zəngi kimin üçün çalınır” (romanlar), “Qoca və dəniz” (povest) və s.

**21 iyul 1910** – Rus rəssamı, tarixi mövzuda monumental əsərlər müəllifi Vladimir Serov (1910-1968) anadan olub. SSRİ Rəssamlar İttifaqına rəhbərlik edib.

**21 iyul 1933** – Amerika yazıçısı Con Qardner (John Champlin Gardner; 1933-1982) anadan olub. “Qrendel” romanı ilə məşhurlaşıb, yazıçılıq peşəsini öyrənənlər üçün “Ədəbiyyat sənəti” əsərinin müəllifidir.

**Hazırladı: V.Orxan**

# “Sazbəndlik və sazbəndlər” – yeni kitab hazırlanır

“Ozan Dünyası” Aşıq Yaradıcılığının Təbliği İctimai Birliyi QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Sazbəndlik və sazbəndlər” adlı layihənin icrasına başlayıb.

İctimai birliyin sədri Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu deyib ki, Azərbaycan aşıq sənətindən danışanda, ilk növbədə, sazbəndlik yada düşür: “Sazbəndlik bir sənət sahəsi kimi çox qədim tarixə malikdir, daha doğrusu, sazbəndliyin tarixi elə sazın, aşıq sənətinin tarixi qədər qədimdir. Zaman-zaman bir sənət sahəsi kimi sazbəndlik də inkişaf edib, ustad sazbəndlər tərəfindən saz bir musiqi aləti kimi daha da təkmilləşdirilib. İndiyədək aşıq sənəti və ayrı-ayrı ustad aşıqlarla bağlı tədqiqatlar aparılsa da, sazbəndlik və sazbəndlər, demək olar ki, diqqətdən kənarda qalıb. Aşıq sənətinin Azərbaycanın milli mədəni sərvəti kimi UNESCO-nun müvafiq siyahısına salınması ilə bu sənətə qayğı və diqqət daha da artırıldı. Bu baxımdan, qədim sənət sahəsi kimi, sazbəndliyə və sazbəndlərə də diqqətin artırılması, bu sənətin tədqiq və təbliğ olunması bu gün olduqca aktualdır”.

M.Nəbioğlu əlavə edib ki, yeni layihə sazbəndliyin təbliğinə kömək edəcək, həm də gənclərdə bu sənətə marağın artmasına səbəb olacaq. Layihə çərçivəsində bir sənət sahəsi kimi sazbəndlik, sazın düzəldilmə texnologiyası və sazbəndlərin həyat və fəaliyyətlərindən bəhs edən kitabın hazırlanması nəzərdə tutulur. Nəşr layihəsinin oktyabrda başa çatdırılması planlaşdırılır.



# “Qızıl nar” uğrunda...

## Bakı Beynəlxalq Qısa Filmlər Festivalına film qəbulu başlayıb

Noyabrın 10-dan 15-dək XIV Bakı Beynəlxalq Qısa Filmlər Festivalı keçiriləcək. Festivalın təşkilat komitəsindən bildirilib ki, müəlliflər festivalın beynəlxalq və yerli müsabiqəsinə xronometrajı 30 dəqiqə, “Cinemobil” müsabiqəsi üzrə isə 5 dəqiqədən çox olmayan filmlərini təqdim edə bilərlər.

Beynəlxalq müsabiqəyə xarici və yerli müəlliflər bədii, sənədli və animasiya filmlərini avqustun 31-dək https://filmfreeway.com/bakuisff platforması üzərindən göndərməlidirlər. Yerli müsabiqəyə bədii, sənədli, animasiya filmləri və sosial çarxlar qəbul olunur. Müəlliflər filmlərini festivalın saytı (www.filmfestival.az) vasitəsilə sentyabrın 20-dək göndərə bilər.

Yerli müsabiqədə iştirak hüququ qazanan filmlər “Ən yaxşı bədii film”, “Ən yaxşı sənədli film”, “Ən yaxşı animasiya filmi”, “Ən yaxşı sosial çarx”, “Ən yaxşı rejissor”, “Ən yaxşı ssenari” və “Ən yaxşı tələbə filmi” nominasiyası uğrunda yarışacaq.

“Cinemobil”də mobil telefon, planşet vasitəsilə çəkilən bədii, sənədli filmlər qəbul olunur. “Ən yaxşı film” nominasiyasının qalibi münsiflər heyətinin, “Tamaşaçı rəğbəti” nominasiyasının qalibi isə tamaşaçıların qərarı ilə seçiləcək.

Festivala göndərilən bütün filmlər peşəkar mütəxəssislərdən ibarət seçim komissiyasından keçəcək və müsabiqə bölmələrində yarışacaq filmlər müəyyənləşəcək. Müsabiqə bölmələrində iştirak edəcək qısa filmlərin siyahısı oktyabrın 25-də elan olunacaq.

Qeyd edək ki, Bakı Beynəlxalq Qısa Filmlər Festivalının əsas mükafatı – “Qızıl nar”dır. Bununla yanaşı bəzi nominasiyalar üzrə qaliblərə xüsusi mükafat və diplom təqdim edilir. Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi Bakı Beynəlxalq Qısa Filmlər Festivalının məramı ölkəmizdə kinematoqrafın təməllərindən hesab olunan qısa filmlərə marağın artırılması, gənc kinematoqrafçıların həvəsləndirilməsi və onlara dəstək verilməsidir. Ötən müddətdə festivala göndərilən filmlər arasında Kann, Venesiya, Berlin film festivallarında, “Oskar” mükafatı uğrunda yarışmış filmlər də yer alıb.

# Azərbaycanlı vokalçı Puççini Festivalında çıxış edib

14 iyul – 26 avqust tarixlərində İtaliyada 69-cu Puççini Festivalı keçirilir. Ənənəvi festival italyan bəstəkarı Cakomo Puççininin doğulduğu Torre del Laqo şəhərində (Toskana vilayəti) təşkil edilib. Festival müddətində müxtəlif ölkələrdən ifaçıların iştirakı ilə bəstəkarın dünyaca məşhur operaları ("Bohema", "Turandot", "Madam Batterflyay", "İl Tabarro") nümayiş olunacaq, həmçinin konsert proqramları keçiriləcək.

Tanınmış vokalçı, Əməkdar artist, Prezident mükafatçısı Afaq Abbasova festivalda çıxış edib. Opera müğənnisi Puççini Festivalında iştirak edən ilk azərbaycanlı ifaçı olmaqdan qürur duyduğunu deyib. Bildirib ki, Toskanada dahi C.Puççininin əsərləri ilə tamaşaçı qarşısına çıxmaq, dünyanın ən məşhur opera ifaçılarıyla eyni səhnəni bölüşmək həm qürurverici hadisədir, həm də böyük məsuliyyət tələb edir.



"Çox şadam ki, bu məsuliyyətli işin öhdəsindən gəldim və tamaşaçı alqışı bunun ən əsas göstəricisidir. Heydər Əliyev Fonduna, eləcə də mənə dəstək olan hər kəsə minnətdarlığımı bildirirəm", – deyə o vurğulayıb.

Qeyd edək ki, Afaq Abbasova uzun müddətdir İtaliyadakı məşqlərdə iştirak edir. O, daha əvvəl də İtaliyada müxtəlif səhnələrdə və tamaşalarda çıxış edib.

# Quşu gözündən çəkmək və qutabın dadına baxmaq

## Ölkəmizin ornitoloji turizm və qastroturizm imkanları Britaniyada tanıdılıb






Azərbaycanın ornitoloji turizm imkanları Böyük Britaniyanın Rutland vilayətində keçirilən Qlobal Quş Müşahidəçiliyi ("Global Bird Fair") turizm sərgisində tanıdılıb.

Dövlət Turizm Agentliyindən (DTA) bildirilib ki, sərgidə Böyük Qafqaz və Talış dağlarında, Nabran sahili, Mingəçevir su anbarı və Kür çayı sahilində, Beşbarmaq, Xınalıq, Ləzə kimi təbiət ərazilərində mövcud quş müşahidəçiliyi potensialı, Azərbaycanda olan nadir quş növləri, Qızılağac, Altıağac, Ağgöl, Abşeron və Şirvan milli parklarındakı biomüxtəliflik və quş müşahidəsi üçün əlverişli mövsümlər haqqında ziyarətçilərə ətraflı məlumat verilib.

Qeyd edək ki, Qlobal Quş Müşahidəçiliyi ("Global Bird Fair") turizm sərgisi ekoturizmin vacib bir istiqaməti kimi ornitoloji turizmin təbliği üzrə beynəlxalq tədbir kimi hər il keçirilir. Bu il sərgidə 20-dək ölkədən 200-dən çox şirkət və qurum təmsil olunub.

***

Azərbaycanın qastroturizm imkanları isə DTA-nın dəstəyi ilə Londonda keçirilən "National Geographic Traveller" kulinariya festivalında təbliğ edilib. Tədbirdə milli mətbəx irsi, Azərbaycana məxsus çay mədəniyyəti, milli şirniyyatlar təqdim olunub.

Festivalın ziyarətçiləri plov, qutab, kükü kimi milli kulinariya nümunələrini, o cümlədən Azərbaycan şərablarını dadmaq imkanı əldə ediblər.

Tədbir çərçivəsində "Çay mərasimi", "Düyü və zəfəran" ustad dərsləri, Azərbaycan şərablarının dequstasiyası keçirilib.

Milli stendimizi Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında səfiri Elin Süleymanov da ziyarət edib.

# Bir gündə 207 min sərnişin

## O cümlədən 98 min xarici turist...

Türkiyənin turizm paytaxtı Antalyanın hava limanı iyulun 15-də rekord sayda sərnişinə xidmət göstərib.




Bu məlumatı Antalya valisi Ersin Yazıcı paylaşıb. Onun bildirdiyinə görə, Antalya aeroportu iyulun 15-də 207 min 84 nəfərə xidmət göstərib ki, onların da 97 min 900-ü beynəlxalq reyslərin sərnişini olub.

Hakimiyyət orqanlarının məlumatına əsasən, Antalya hava limanında həmin gün 1164 reys həyata keçirilib.

Qeyd edək ki, təkcə Türkiyənin deyil, ümumilikdə Aralıq dənizi regionunun ən böyük turizm mərkəzi sayılan Antalya 2023-cü ilin beş ayında turist qəbulu sayında rekord nəticə əldə edib. Antalya Valiliyi Mədəniyyət və Turizm Müdirliyinin məlumatına görə, 1 yanvar – 10 iyun aralarında bölgəyə hava yolu ilə gələn turist sayı 4 milyon 63 min nəfər olub. Bu göstərici Türkiyədə "turizm rekordları" ilə yadda qalmış 2019-cu ilin eyni dövründə Antalyaya gələn turist sayını (4 milyon 27 min) geridə qoyub.

# Heykəltaraş arılar

## Qüdsdə arılar imperator Adrianın heykəlini yaradır

İsrailin Qüds (Yerusəlim) şəhərində dünyanın qeyri-adi heykəli yaradılır. Onun heykəltaraşları arılardır. İsrail Muzeyinin xüsusi layihəsi Roma imperatoru Adrianın bürünc heykəlinin rekonstruksiyasını nəzərdə tutur.



Antik dövrlərdən günümüzə gəlib çatan abidə 1975-ci ildə Beyt-Şean vadisində aşkar edilib. İndi İsrail Muzeyinin bağında xüsusi yaradılmış pətəklərdəki minlərlə arı heykəlin yeni variantı üzərində "çalışır". Unikal layihə 1800 il əvvəl bürünc heykəlin ərsəyə gəlməsi üzrə metoda uyğundur. Bu, özəl tökmə əməliyyatı "itirilmiş bal mumu" adlanır. Antik dövrdə də heykəlin bürüncdən tökülməsi zamanı bal mumundan istifadə ediblər. Heykəltaraşlar indi də bu texniki metoddan istifadə edirlər.

Layihəni reallaşdırmaq üçün arıları "memarlıq" bal pətəyinə yönəldir və bu mürəkkəb texniki prosesi skaner və üçölçülü printerin köməyi ilə həyata keçirirlər. Bir neçə aydan sonra mum modeli Qüdsdəki İsrail Muzeyinin qalereyasında imperator Adrianın bürünc büstü ilə yanaşı qoyulacaq.

Qeyri-adi layihə dizayn və memarlıq üzrə kurator Rami Trif və ellinistik, Roma və Bizans dövrləri üzrə baş kurator David Mevirax ilə birgə əməkdaşlıq şəraitində həyata keçirilir. Prosesdə slovakiyalı dizayner və rəssam, arılarla iş metodunu işləyib hazırlamış Rafi Nir də iştirak edir. O, muzeyi arı yeşikləri ilə təchiz edib və onlara qulluq göstərir.

# İlon Mask tviter vasitəsilə süni intellekt öyrədəcək

İlon Maskın xAI şirkəti süni intellekt (AI) modellərini öyrətmək üçün tviter yazılarından istifadə edəcək.

Bu barədə məlumat verən İlon Mask deyib: "Düşünürəm ki, biz də təlim üçün hər kəsin etdiyi kimi, – əlbəttə, şəxsi heç nəyə toxunmadan, – ictimai tvitlərdən istifadə edəcəyik". Mask digər şirkətlərin süni intellekt modellərini öyrətmək prosesində sosial şəbəkədəki paylaşımlardan "qeyri-qanuni istifadə etdiyini" vurğulasa da, söhbətin hansı şirkətlərdən getdiyini açıqlamayıb.

Maskın qeyd etdiyi kimi, xAI ən təhlükəsiz yanaşma olan "ən çox maraqlanan və həqiqəti axtaran" süni intellekt yaratmağa çalışacaq. "xAI-ın əsas amalı kainatı dərk etmək məqsədini həyata keçirəcək yaxşı süni intellekt yaratmaqdır", – deyə o bildirib. Eyni zamanda o, süni intellekt sahəsinin tənzimlənməsinin tərəfdarı olduğunu vurğulayıb.

İlon Mask xAI-ın sahibi olduğu elektrikli avtomobil şirkəti "Tesla" ilə sıx əməkdaşlıq edəcəyini də söyləyərək, onların qarşılıqlı fayda gətirəcəyini deyib. O, süni intellekt sahəsindəki inkişafın "Tesla"nın avtopilot sisteminin təkmilləşdirilməsi üçün tətbiq olunacağını istisna etməyib.

# Türkiyədə süni intellektin iştirakı ilə yaranan sərgi açılıb

Türkiyənin Bursa Böyükşəhər Bələdiyyəsi tərəfindən bərpa edildikdən sonra sənət qalereyası olaraq qapılarını sənətsevərlərin üzünə açan 2300 il tarixə malik Zindanqapıda təbiətin gözəlliklərini texnologiya ilə həmahəng edən "Təbiət alqoritmləri" adlı vizual sərgi açılıb.



Daha çox konsept sərgilərlə sənətsevərləri bir araya gətirən Zindanqapı Müasir İncəsənət Qalereyasındakı növbəti sərginin müəllifi rəssam Leo İşıkdoğandır. Bursa Anadolu Liseyinin məzunu olan və Kaliforniyada yaşayan L.İşıkdoğanın sərgisi 7 fərqli əsərdən ibarətdir. Əsərlər xüsusi kodlaşdırılmış süni intellekt və yaradıcı alqoritmlərlə işlənib. Sərgidə təbiət aləminin görülməyən gözəlliyi ilə riyazi tənliklərin nizamlı strukturu arasında əlaqə nümayiş olunur.

Kodlaşdırma və süni intellektin birləşməsindən yaranan, eyni zamanda alqoritmik naxışlar nümayiş etdirilən fərqli vizual sərgi sentyabrın 17-dək davam edəcək.

# Pulumu verin...

## Hollivud aktyorları tətilə başlayıblar

ABŞ Kinematoqrafçılar Gildiyası böyük studiyalar və yayım şirkətləri ilə ödənişlərin artırılması ilə bağlı razılığa gələ bilmədiyi üçün Hollivud aktyorları tətil edirlər.




ABŞ Ekran Aktyorları Gildiyası və Amerika Televiziya və Kino Aktyorları Federasiyasının danışıqlar komitəsinin rəhbəri Dunkan Krabtri-İreland bildirib ki, mövcud yayım modeli aktyorların filmlərin təkrar nümayişindən qazanc əldə etmələrini çətinləşdirir və yüksək inflyasiya onların dolanışıqlarını təmin etmək imkanlarını zəiflədir.

Etirazda 160 minə yaxın kino və televiziya aktyorunun iştirakı gözlənilir. Bu səbəbdən ABŞ-də bütün premyera tədbirləri ləğv edilib.

Kristofer Nolanın "Oppenheimer" filmi Hollivuddakı tətilin ilk qurbanlarından olub. Ekran əsərində əsas rolların ifaçıları olan aktyorlar Nyu-Yorkda iyulun 17-nə planlaşdırılan premyeraya qatılmaqdan imtina ediblər.

ABŞ Kinematoqrafçılar Gildiyasının tətili Hollivudun film istehsalını dayandırıb. Tətil təlimatlarına əsasən, bu müddət ərzində bütün kinostudiyalarda film istehsalı ilə məşğul olmaq qadağandır.




Olaylar, faktlar (18–20 iyul)

### 621 il əvvəl...



**20 iyul 1402-ci ildə** Ankara yaxınlığında Əmir Teymurun qoşunları ilə Sultan İldırım Bəyazidin başçılıq etdiyi Osmanlı ordusu arasında tarixi döyüş olub. Asiyanın böyük hissəsinə hökmran olan iki türk sərkərdəsinin üz-üzə gəldiyi döyüşdə Teymurun ordusu qalib gəlib, Bəyazid əsir götürülüb. 1405-ci ildə Əmir Teymurun ölümündən sonra qurduğu dövlətin süquta doğru getdi və Osmanlı dövləti güclənməyə başladı.

### 213 il əvvəl...

**20 iyul 1810-cu ildə** İspaniyanın Cənubi Amerikadakı müstəmləkəsi olan Kolumbiya müstəqilliyini elan edib. O vaxt Yeni Qranada adlanan Kolumbiya müstəqilliyini təsdiqləmək üçün İspaniya hökmranlığı ilə 15 il müharibə aparmalı oldu.

### 197 il əvvəl...

**19 iyul 1826-cı ildə** İran qoşunları Araz çayını keçərək Rusiyanın nəzarətində olan Şimali Azərbaycan torpaqlarına daxil olub, ikinci Rusiya-İran müharibəsi (1826-1828) başlanıb. İran Rusiya ilə 1804-1813-cü illər müharibəsindəki məğlubiyyətin əvəzini çıxmağa çalışsa da, yenə məğlub oldu. Türkmənçay müqaviləsinə əsasən (10 fevral 1828), ruslar İranın nəzarətindəki İrəvan və Naxçıvan xanlıqlarını da ələ keçirdilər. Bununla da Araz çayından şimalda bütün Azərbaycan torpaqlarının Rusiyaya ilhaqı başa çatdırıldı.

### 153 il əvvəl...

**19 iyul 1870-ci ildə** Fransa və Prussiya arasında müharibə başlayıb. Tərəflər bir-biri ilə tarixi haqq-hesab çəkmək istəyirdi. 1871-ci ildə müharibədən Otto Bismarkın rəhbərlik etdiyi almanlar qalib çıxdılar. Fransa Elzas və Lotringiya bölgələrini itirdi. Fransanın üzərinə ağır təzminat qoyuldu, ordusu tərk-silah edildi. 1918-ci ildə, I Dünya müharibəsinin yekununda eyni aqibət Almaniyanı gözləyirdi.

### 115 il əvvəl...

**18 iyul 1908-ci ildə** Səttarxanın başçılıq etdiyi inqilab (Məşrutə inqilabı) Təbrizdə qələbə çalıb. Təbriz İran inqilabının (1905-1911) mərkəzinə çevrilib. 1909-cu ildə Cənubi Azərbaycanda yerli hakimiyyət orqanları qurulmağa başlandı. 1910-cu ilin martında Səttərxanın fədailəri Tehrana yürüşə başladılar, lakin İran monarxiyasının çar Rusiyasını köməyə çağırması ilə inqilab süqut etdi.

### 103 il əvvəl...

**19 iyul 1920-ci ildə** Xalq Cümhuriyyətinin qurucularından biri, 1918-1920-ci illərdə Azərbaycan Parlamentinin sədr müavini olmuş Həsən bəy Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirilib.

### 74 il əvvəl...

**19 iyul 1949-cu ildə** Fransanın Cənub-Şərqi Asiyadakı müstəmləkəsi olan Laos müstəqilliyini elan edib. Laos II Dünya müharibəsindən sonra, 1945-ci ilin oktyabrında müstəqilliyini bəyan etsə də, yenidən fransızlar tərəfindən işğal edilmişdi. Fransa keçmiş müstəmləkəsini müstəqil dövlət olaraq yalnız 1953-cü ildə tanıdı.

### 49 il əvvəl...



**20 iyul 1974-cü ildə** Kiprin yunan rəhbərliyinin adanın şimalında yaşayan türklərə qarşı başladığı deportasiya və enozis (Kiprin Yunanıstana birləşdirilməsi) siyasətinə cavab olaraq adaya Türkiyə hərbi kontingenti yeridib. 1571-1878-ci illərdə Osmanlının tərkibində olan Kipr Balkan müharibəsindən sonra Britaniyanın nəzarətinə keçmişdi. 1960-cı ildə Kipr müstəqilliyini elan etsə də, yunan və türk icması arasında münaqişə adanı faktiki iki yerə böldü. 1983-cü ildə Şimali Kipr Türk Cümhuriyyəti elan edildi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 1781
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641